# XƏZƏR XƏBƏR

## KHAZAR REVIEW

№ 445 Dekabr 2024





AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org




## “ƏDƏBİYYAT SƏYYAHLARI” (*KLV.AZ*) SAYTININ KEÇİRDİYİ HEKAYƏ VƏ ESSE ÜZRƏ RESPUBLİKA MÜSABİQƏSİNƏ YEKUN VURULUB

## RESULTS ANNOUNCED FOR THE NATIONAL STORY AND ESSAY COMPETITION BY "LITERATURE TRAVELERS" (*KLV.AZ*) WEBSITE

Dekabrın 16-da dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi münasibətilə Xəzər Universitetinin “Ədəbiyyat səyyahları” (*klv.az*) saytının fəlsəfi - irfani mövzuda hekayə və esse üzrə elan etdiyi respublika müsabiqəsinə yekun vurulub. Qaliblərin mükafatlandırma mərasiminə universitetin müəllim - tələbə heyəti, müsabiqəyə sponsorluq edən NAB Holdinqin və Mövlana Ədəbi - Fəlsəfi Araşdırmalar İnstitutunun (MƏFAİ) əməkdaşları, habelə Füzuli



*Hamlet İsaxanlı*



On December 16, the national competition for philosophical and mystical stories and essays, announced by Khazar University's "Literature Travelers" (*klv.az*) website on the occasion of the 530th birth anniversary of the great Azerbaijani poet Muhammad Fuzuli, concluded. The award ceremony was attended by university faculty and students, representatives from NAB Holding and the Mevlana Literary-Philosophical Research



poeziyasının pərəstişkarları qatılıb.

Xəzər Universitetinin Mərmər salonunda keçirilən tədbir Xəzər Universitetinin Kamera orkestri və tələbələrdən ibarət xor kollektivinin çıxışı ilə




*Qardaşxan Əzizxanlı*

başlayıb. Humanitar, təhsil və sosial elmlər, Təbiət elmləri və mühəndislik fakültələrinin 100-ə yaxın tələbəsinin böyük şairin "Can vermə qəmu-eşqə ki, eşq afəti - candır" misrası ilə başlayan qəzəlini xorla "Şur" muğamı üstə oxumaları Füzuli poeziyasına sonsuz sevginin ifadəsi olub. C.Cahangirovun "Füzuli" kantatası, "Leyli-Məcnun" operasından parçalar, o cümlədən "Arazbarı", həmçinin universitetin tələbəsi Elvin Əliyevin ifasında M.Füzulinin sözlərinə yazılmış "Vətənimdir" romansı alqışlarla qarşılanıb.

*(Ardı səh.6-da)*

Institute (MLFRI) who sponsored the competition, as well as admirers of Fuzuli's poetry. The event, held in Khazar University's Marble Hall, began with performances by Khazar University's Chamber Orchestra and student choir. Nearly 100 students from the Schools of Humanities, Education and Social Sciences, Natural Sciences and Engineering demonstrated their boundless love for



*Rüstəm Lazımov*

Fuzuli's poetry by performing his ghazal beginning with "Don't surrender to love's grief, for love is the soul's affliction" in chorus to the "Shur" mugham. J. Jahangirov's "Fuzuli" cantata, excerpts from "Leyli and Majnun" opera including "Arazbari," and the romance "Vatanimdir" set to Fuzuli's words performed by university student Elvin Aliyev were met with applause.

*(To be continued page 6)*

# İÇİNDƏKİLƏR


**"Ədəbiyyat səyyahları" (klv.az) saytının keçirdiyi hekayə və esse üzrə respublika müsabiqəsinə yekun vurulub ........ 2**
**Xəzər Universitetinin Əcnəbi Tələbə klubu ETŞ-nin Azərbaycanda yerli bölməsi kimi rəsmi status aldı ........ 8**
**Xəzər Universitetinin tələbəsi Oxford Universiteti tərəfindən təşkil olunan iqlim təlim proqramında uğurla iştirak etmişdir ........ 9**
**Xəzər Universitetində geniş müşavirə: "Biz necə bir universitet istəyirik?!" ........ 10**
**Xəzər Universiteti "Elm və ali təhsilin beynəlmiləlləşməsi" sahəsində fəaliyyəti ilə fərqləndiyinə görə təltif olunub ........ 12**
**Nailəxanım Fondunun təsis etdiyi Nailəxanım təqaüdü 2024/2025-ci tədris ili üzrə təqdim olundu ........ 13**
**Departament müdiri Litvadakı ukraynalı qaçqınlara həsr olunmuş fotosərgidə ........ 15**
**DIRNA: "Tədqiqat metodları" mövzusunda təlim ........ 17**
**Əcnəbi tələbələr ağacəkmə aksiyasında ........ 19**
**"Xəzər"in əməkdaşları Qazaxıstan universitetlərində ........ 20**
**Xəzər Universitetində Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun seminarı ........ 21**
**Departament müdiri TRT World Forum 2024-də ........ 24**
**Bartın Universitetinin nümayəndələri "Xəzər"də ........ 26**
**"Üçüncü türkçülük çalışmaları" konfransı ........ 28**
**Xəzər Universitetinin əcnəbi tələbələri Şuşada ........ 31**
**DIRNA layihəsi çərçivəsində tədbir: "Açıq giriş və elm diplomatiyası" ........ 34**
**Tələbələr üçün beynəlxalq seminar: "Türkdilli Dövlətlər Sammiti"ndən Türk dövlətlərinin birliyinə ........ 36**
**DIRNA layihəsi çərçivəsində Elm və Ali Təhsil üzrə Dövlət Agentliyində görüş ........ 37**
**AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ........ 38**
**"Türk dünyasında Azərbaycan dili və ədəbiyyatı araşdırmaları" mövzusunda I Beynəlxalq Elmi Simpozium ........ 42**
*Leyla Mustafayeva*. **Zərdüştlüyün fəlsəfəsi ........ 48**
**"Elm və Sənət Məclisi"nin 82-ci məşğələsi ........ 52**
**Ortaq Türk əlifbasının problemləri və perspektivləri haqqında konfrans ........ 60**
**Xəzər Universitetində IX Beynəlxalq Rumi simpoziumu ........ 66**
**Vətən Müharibəsi Qəhrəmanı Ramiz Cəfərovun xatirəsinə həsr olunmuş dərs ........ 71**
**"Unudulmuş qədim bayramlarımız: Çillə gecəsi" mövzusunda tədbir ........ 72**
**Elmi Şuranın növbəti iclası ........ 76**


**Jurnalın üz qabığında:** *Dillər və ədəbiyyatlar departamentinin müdiri Dilbər Zeynalova və hekayə müsabiqəsi qaliblərindən biri Səma Quliyeva*


1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Results Announced for the National Story and Essay Competition by "Literature Travelers" (klv.az) Website ........ 2
The Foreign Student Club of Khazar University Officially Received Status as a Local Branch of ESN ........ 8
Khazar University Student Succesfully Participates in Climate Training Program Organized by Oxford University ........ 9
Comprehensive Deliberation at Khazar University: "What Kind of University Do We Want?!" .. 10
Khazar University Awarded for ITS Distinguishing Activity in the "Internationalization of Science and Higher Education" ........ 12
Nailekhanim Scholarship Established by Nailekhanim Foundation Awarded for 2024/2025 Academic Year ........ 13
Department Head at the Photographic Exhibition Dedicated to Ukrainian Refugees in Lithuania ........ 15
DIRNA: Training on "Research Methods" ........ 17
Foreign Students Participate in Tree Planting Campaign ........ 19
"Khazar" Staff at Kazakhstani Universities ........ 20
Seminar of the Joint Institute for Nuclear Research at Khazar University ........ 21
Department Head Participates in TRT World Forum 2024 ........ 24
Bartın University Representatives at "Khazar" ........ 26
"Third Turkism Studies" Conference ........ 28
Khazar University's Foreign Students in Shusha ........ 31
Event within the DIRNA Project: "Open Access and Science Diplomacy" ........ 34
International Seminar for Students: "From the Summit of Turkic States to the Unity of Turkic States" ........ 36
Meeting at the State Agency for Science and Higher Education within the DIRNA Project ........ 37
News of the Institute of ANAS Named after Nizami (*in Azerbaijani*) ........ 38
I International Scientific Symposium on "Azerbaijani Language and Literature Studies in the Turkic World" ........ 42
*Leyla Mustafayeva.* Philosophy of Zoroastrianism (*in Azerbaijani*) ........ 48
The 82nd Session of the "Science and Art Assembly" ........ 52
Conference on the Problems and Perspectives of the Common Turkic Alphabet ........ 60
IX International Rumi Symposium at Khazar University ........ 66
Lesson Dedicated to Homeland War Hero Ramiz Jafarov ........ 71
Event on "Our Forgotten Ancient Holidays: Chelle Night" ........ 72
Next Meeting of the Scientific Council ........ 76

**On the cover page of the journal:** *Dilbar Zeynalova, Head of the Department of Languages and Literatures, and Sama Guliyeva, one of the winners of the story competition*

It has been published since January 1995

**Founder:** Khazar University

**Editor-in-chief:** Hamlet Isakhanli

**Associate editor:** Alirza Balayev

**Photo:** Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli
**Computer graphics:**
Gunel Akbarova

Humanitar, təhsil və sosial elmlər fakültəsinin III kurs tələbəsi Minəxanım Qasımova Füzulinin "Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor", Təbiət elmləri və mühəndislik fakültəsinin I kurs tələbəsi Aytac Miriyeva "Ey



*Nurlana İşıq (Məmmədova)*

mələksima ki, səndən özgə heyrandır sana" qəzəlini özünəməxsus tərzdə səsləndiriblər.

Tədbirdə çıxış edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, "Ədəbiyyat səyyahları" saytının təsisçisi Prof.Akad. Hamlet İsaxanlı Füzulinin Azərbaycan və dünya ədəbiyyatındakı rolundan danışaraq, onun poetik dünyasının dərin fəlsəfi və irfani anlamlarla zəngin olduğunu bildirib. Qeyd edib ki, Füzuli yaradıcılığı yalnız ədəbi mətnlər deyil, həm də insanın varlığı, eşq və mənəvi axtarışları haqqında dərin fəlsəfi suallara cavab axtarışı kimi dəyərləndirilməlidir.

Dillər və ədəbiyyat departamentinin müəllimi, "Ədəbiyyat səyyahları" saytının baş redaktoru Qardaşxan Əzizxanlı Füzuli irsində eşq və kamillik axtarışı mövzusuna toxunub. O, Füzulinin "Leyli və Məcnun" əsərindəki irfani eşq anlayışının İslam fəlsəfəsindəki kamillik konsepsiyası ilə bağlı olduğunu vurğulayıb. Bildirib ki, Füzulinin eşqi yalnız romantik sevgi deyil, ilahi həqiqətə çatmaq yolunda mənəvi yüksəlişi ifadə edir.

Tədbir iştirakçılarına NAB Holdinqin prezidenti Şahram Mohaqqeq Orominin salamını çatdıran holdinqin nümayəndəsi, filologiya üzrə fəlsəfə doktoru Rüstəm Lazımov çıxış edə-

Minakhanim Gasimova, a third-year student from the School of Humanities, Education and Social Sciences, and Aytaj Miriyeva, a first-year student from the School of Natural Sciences and Engineering, performed Fuzuli's ghazals in their unique styles.

Speaking at the event, Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, and founder of the "Literature Travelers" website, discussed Fuzuli's role in Azerbaijani and world literature, noting that his poetic world is rich with deep philosophical and mystical meanings. He emphasized that Fuzuli's works should be evaluated not only as literary texts but also as a search for answers to profound philosophical questions about human existence, love, and spiritual quest.

Gardashkhan Azizkhanly, lecturer at the Department of Languages and Literature and editor-in-chief of "Literature Travelers" website, addressed



*İradə Xəlilova, Əli Ağazadə*

the theme of love and the search for perfection in Fuzuli's heritage. He emphasized that the concept of mystical love in Fuzuli's "Leyli and Majnun" is connected with the concept of perfection in Islamic philosophy. He stated that Fuzuli's love represents not only romantic love but spiritual elevation on the path to divine truth.

Dr. Rustam Lazimov, NAB Holding's representative and Ph.D. in Philology, conveyed greetings from Shahram Mohaghegh Oromi, president of NAB Holding, and highlighted the ideological




*Nəzakət Məmmədli, Fatmaxanım Heydərli*

rək, Füzulinin irfan dünyagörüşünün İbn Ərəbi, Şəhabəddin Sührəvərdi və digər Şərq mütəfəkkirləri ilə ideya yaxınlıqlarına diqqət çəkib. O, qeyd edib ki, Füzulinin yaradıcılığı Şərq irfan ənənəsinin Azərbaycan ədəbiyyatındakı ən parlaq təzahürlərindən biridir.

Sonra hekayə və esse üzrə respublika müsabiqəsinin qaliblərinin adları açıqlanıb. Esse üzrə Əli Ağazadə, Fatmaxanım Heydərli və Təhminə Verdiyeva, hekayə üzrə Nurlana İşıq (Məmmədova), Səma Quliyeva, Gülnaz Allahverdiyeva qalib elan olunublar. Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova, Mövlana Ədəbi - Fəlsəfi Araşdırmalar İnstitutunun (MƏFAİ) direktoru, filologiya elmləri doktoru Nəzakət Məmmədli, "Ədəbiyyat səyyahları" saytının məsul redaktoru Dos. Ülvi Babasoy qaliblərə pul mükafatları və diplomlar təqdim ediblər.

Tədbirdə Memarlıq və dizayn departamentinin tələbələrinin əl işlərindən ibarət "Füzuli-530" adlı sərgi nümayiş etdirilib.



*Ülvi Babasoy, Təhminə Verdiyeva*

similarities between Fuzuli's mystical worldview and those of Ibn Arabi, Shahabeddin Suhrawardi, and other Eastern thinkers. He noted that Fuzuli's work represents one of the brightest manifestations of Eastern mystical tradition in Azerbaijani literature.

Then, the winners of the national competition for stories and essays were announced. Ali Aghazade, Fatmakhanim Heydarli, and Tahmina Verdiyeva won in the essay category, while Nurlana Ishig (Mammadova), Sama Guliyeva, and Gulnaz Allahverdiyeva won in the story category. Assoc. Prof. Irada Khalilova, Rector of Khazar University, Assoc. Prof. Dilbar Zeynalova, Head of the Department of Languages and Literature, Prof. Nazakat Mammadli, Director of the Mevlana Literary-Philosophical Research Institute (MLFRI), and Assoc. Prof. Ulvi Babasoy, managing editor of "Literature Travelers" website, presented monetary awards and diplomas to the winners.

An exhibition titled "Fuzuli-530" featuring handicrafts by students of the Architecture and Design Department was displayed at the event.




*Dilbər Zeynalova, Gülnaz Allahverdiyeva*

# XƏZƏR UNİVERSİTETİNİN ƏCNƏBİ TƏLƏBƏ KLUBU ETŞ-NİN AZƏRBAYCANDA YERLİ BÖLMƏSİ KİMİ RƏSMİ STATUS ALDI

# THE FOREIGN STUDENT CLUB OF KHAZAR UNIVERSITY OFFICIALLY RECEIVED STATUS AS A LOCAL BRANCH OF ESN



*Abdullahi Aduagba Yahaya*

Noyabrın 21-24-də Xəzər Universiteti Əcnəbi Tələbə klubunun vitse-prezidenti Abdullahi Aduagba Yahaya Yunanıstanın Saloniki şəhərində keçirilən Erasmus Tələbə Şəbəkəsi (ETŞ) Baş Assambleyasının iclasında iştirak edib. Qeyd edək ki, ETŞ Avropanın ən böyük tələbə təşkilatlarından biridir və Baş Assambleya təşkilatın fəaliyyətinə dair mühüm məsələlərin müzakirə və səsvermə ilə həll edildiyi əsas qərarverici orqandır.

Abdullahi Xəzər Universitetinin Əcnəbi Tələbə klubunun Azərbaycanda yeni ETŞ yerli bölməsi kimi qəbul olunması üçün ETŞ Beynəlxalq Şurasına və 45 ölkədən olan ETŞ milli nümayəndələrinə müraciət təqdim edib. Sonra, qaydaya görə, sual-cavab sessiyasında Abdullahi klub haqqında iştirakçılara geniş məlumat verib və klub "ESN Khazar" adı ilə yekdilliklə Azərbaycanda ETŞ yerli bölməsi kimi təsdiqlənib.

Abdullahinin plenar sessiyada əsas məsələlər üzrə fəal iştirakı da nümayəndələr və Beynəlxalq Şura üzvləri tərəfindən xüsusi təqdir edilib və o, qrup lideri seçilib, ETŞ-nin strukturu, idarəçiliyi və maliyyələşdirilməsi mövzusunda çıxış edib.

Vitse-prezident Abdullahi Baş Assambleyadan sonra milli təşkilatların nümayəndələri ilə məsləhətləşmələr aparıb, onların təcrübəsini öyrənib. Plenar Sessiyanın sonunda o, ETŞ Beynəlxalq Şurasının üzvlərinə və nümayəndələrə hədiyyə və suvenirlər təqdim edib.

On November 21-24, Abdullahi Aduagba Yahaya, Vice President of the Khazar University Foreign Student Club, participated in the Erasmus Student Network (ESN) General Assembly meeting in Thessaloniki, Greece. It should be noted that ESN is one of the largest student organizations in Europe, and the General Assembly is the primary decision-making body where important issues regarding the organization's activities are discussed and voted on.

Abdullahi submitted an application to the ESN International Council and ESN national representatives from 45 countries for the acceptance of the Khazar University Foreign Student Club as a new local branch in Azerbaijan. Subsequently, during the standard question-and-answer session, Abdullahi provided comprehensive information about the club to the participants, and the club was unanimously confirmed as the local ESN branch in Azerbaijan under the name "ESN Khazar". Abdullahi's active participation in the plenary session was particularly praised by delegates and International Council members, and he was elected as a group leader, delivering a speech on ESN's structure, governance, and financing.

After the General Assembly, Vice President Abdullahi conducted consultations with national organization representatives and studied their experiences. At the end of the Plenary Session, he presented gifts and souvenirs to ESN International Council members and representatives.

## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİ OXFORD UNİVERSİTETİ TƏRƏFİNDƏN TƏŞKİL OLUNAN İQLİM TƏLİM PROQRAMINDA UĞURLA İŞTİRAK ETMİŞDİR



*Aygün Muradova*

Xəzər Universitetinin Kimya və biologiya müəllimliyi ixtisası üzrə təhsil alan III kurs tələbəsi Aygün Muradova, beynəlxalq səviyyədə tanınan və iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş "Global Youth Climate Training Programme 2024" proqramını müvəffəqiyyətlə başa vuraraq, beynəlxalq sertifikata layiq görülmüşdür. Bu nüfuzlu proqram Oxford Universiteti, Smith School of Enterprise and the Environment və Global Youth Coalition tərəfindən təşkil olunaraq, qlobal miqyasda gənclərin iqlim təşəbbüslərinə dəstək olmağı hədəfləyir.

Aygün Muradova bu təlim proqramında iştirak etməklə iqlim dəyişikliyi sahəsində biliklərini artırıb və yeni təcrübələr əldə edib. O, bu təlim çərçivəsində dayanıqlı inkişaf, resursların idarə olunması, qlobal iqlim siyasəti kimi mövzularda təcrübə qazanmışdır.

Aygün Muradova, həmçinin, COP29-da könüllü fəaliyyəti zamanı Global Youth Coalition və Oxford Universitetinin əməkdaşları, eləcə də proqramın həmtəşkilatçılarından biri olan Agustin Ocaña ilə şəxsən tanış olmaq imkanı əldə edib. "Agustin ilə tanışlıq mənim üçün çox əlamətdar oldu. Onun iqlim dəyişikliyi ilə bağlı yanaşmaları və dünya gənclərinə dəstək missiyası mənə böyük motivasiya verdi" - deyə Aygün qeyd edib.

Proqramın digər təşkilatçısı olan Alexis McGivern`ə də təşəkkürünü bildirən Aygün Muradova, həm Alexis`ə, həm də Agustin`ə iqlim dəyişikliyi ilə mübarizə aparan gənclərə verdikləri dəstək üçün minnətdarlığını bildirib. "Hər iki təşkilatçının bu sahədə gördükləri işlər bizi daha böyük məqsədlərə çatmaq üçün ilhamlandırır," - deyə o, vurğulayıb.

## KHAZAR UNIVERSITY STUDENT SUCCESFULLY PARTICIPATES IN CLIMATE TRAINING PROGRAM ORGANIZED BY OXFORD UNIVERSITY




Aygün Muradova, a third-year student majoring in Chemistry and Biology Education at Khazar University, successfully completed the internationally recognized "Global Youth Climate Training Programme 2024" and was awarded an international certificate. This prestigious program was organized by Oxford University, the Smith School of Enterprise and the Environment, and the Global Youth Coalition, with the aim of supporting youth climate initiatives on a global scale.

By participating in this training program, Aygün Muradova expanded her knowledge and gained new experiences in the field of climate change. She gained experience in topics such as sustainable development, resource management, and global climate policy.

During her volunteer work at COP29, Aygün Muradova also had the opportunity to personally meet collaborators from the Global Youth Coalition and Oxford University, as well as Agustin Ocaña, one of the program's co-organizers. "Meeting Agustin was very significant for me. His approaches to climate change and mission to support young people around the world gave me great motivation," Aygün noted.

Expressing her gratitude to Alexis McGivern, another program organizer, Aygün Muradova thanked both Alexis and Agustin for their support to young people fighting climate change. "The work done by both organizers inspires us to reach even greater goals," she emphasized.

# XƏZƏR UNİVERSİTETİNDƏ GENİŞ MÜŞAVİRƏ: "BİZ NECƏ BİR UNİVERSİTET İSTƏYİRİK?!"



*Hamlet İsaxanlı*



# COMPREHENSIVE DELIBERATION AT KHAZAR UNIVERSITY: "WHAT KIND OF UNIVERSITY DO WE WANT?!"

Dekabrın 2-də Xəzər Universitetində "Biz necə bir universitet istəyirik?!" mövzusunda geniş müşavirə keçirildi. Mərmər salonda keçən müşavirədə universitetin rəhbərliyi, fakültə dekanları, departament müdirləri, elmi-tədqiqat mərkəzləri və institutlarının direktorları, professor-müəllim heyəti iştirak edirdilər.

Müşavirədə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı geniş məruzə ilə çıxış etdi. Məruzəsinin giriş hissəsində dünya universitetlərinin məkan və zaman etibarilə təşəkkülünə ətraflı nəzər salan natiq Avropada, ABŞ-da və Asiyada, xüsusilə Çində müəyyən ali təhsil təsisatlarının güclü universitet statusu qazanmasına məhz səviyyəli təhsillə yanaşı, ciddi elmi-tədqiqat işləri aparılmasının səbəb olduğunu vurğuladı. Qeyd etdi ki, müasir dövrdə bu istiqamət daha da intensivləşərək, universitet-sənaye alyansının bərqərar olmasını mümkün etmişdir.

Xəzər Universiteti qurulduğundan etibarən bu istiqamətin nəzərdə tutulduğunu diqqətə çatdıran H. İsaxanlı sonradan bu işin tədricən praktik müstəviyə keçməsini, son dövrlərdə isə geniş vüsət aldığını söylədi. Universitet nəzdində geniş sahələrdə və xeyli sayda elmi-tədqiqat mərkəzləri və institutlarının yaradıldığı və bu işin davam etdirildiyini söyləyən natiq onu da vurğuladı ki, bu işə xeyli xarici ölkə mütəxəssisləri də cəlb olunmuşdur ki, bu da Xəzər

On December 2, a comprehensive deliberation titled "What Kind of University Do We Want?!" was held at Khazar University. The deliberation, which took place in the Marble Hall, was attended by the university's leadership, faculty deans, department heads, directors of research centers and institutes, and faculty members.

At the deliberation, Khazar University's founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli delivered an extensive report. In the introductory part of his report, the speaker took a detailed look at the formation of universities worldwide in terms of space and time. He emphasized that in Europe, the United States, and Asia, particularly in China, certain higher education institutions gained a strong university status not only through high-quality education but also through serious scientific research. He noted that in the modern era, this trend has become even more intensive, enabling the establishment of university-industry alliances.

Highlighting that Khazar University has envisioned this direction since its establishment, H. Isakhanli said that this work has gradually moved to a practical level and has recently gained significant momentum. Mentioning the creation of numerous research centers and institutes in various fields within the university and the continuation of this work, he also stressed that many foreign specialists have been involved in this effort, which is in line with the university's consistent

Universitetinin daim yürütdüyü beynəlmiləlləşmə kursuna müvafiqdir.

Məruzəsinin son hissəsində universitetdəki elmi-tədqiqat mərkəzləri və institutların işi üzərində ciddi dayanan H. İsaxanlı onların fəaliyyətinin daha yüksək səviyyədə nizamlanması üçün təşkilati tədbirlərin də daim həyata keçirildiyini və son günlərdə yaradılmış xüsusi komissiyanı misal göstərdi. Qeyd etdi ki, komissiyaya elmi tədqiqat mərkəzləri və institutlarının uğurlarını, perspektivlərini və çatışmazlıqlarını əhatə edən hesabat hazırlamaq həvalə olunmuşdur.

Prof.Akad. Hamlet İsaxanlı universitetdəki bu mühüm fəaliyyətin daha səmərəli olacağına əminliyini bildirdi və sonda sualları cavablandırdı.

internationalization course.

In the final part of his report, H. Isakhanli focused deeply on the work of scientific research centers and institutes at the university. He pointed out that organizational measures are constantly being implemented to better regulate their activities, citing a special commission recently created. He noted that the commission has been tasked with preparing a report covering the successes, perspectives, and shortcomings of research centers and institutes.

Prof. Acad. Hamlet Isakhanli expressed confidence that this important activity at the university will become even more effective and concluded by answering questions.

## XƏZƏR UNİVERSİTETİNƏ TƏŞƏKKÜR MƏKTUBU

**Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri**
**Hamlet İsaxanlıya**

Hörmətli Dr. İsaxanlı,

Ümid edirəm ki, işləriniz qaydasındadır. Fulbrayt təqaüdümün birinci hissəsinin sonuna yaxınlaşdıqca, keçirdiyim bu inanılmaz səyahəti düşünür və sizin gözəl qonaqpərvərliyinizə və ən əsası, bu yüksək səviyyəli universitetdə işləmək imkanı verdiyinizə görə sizə səmimi-qəlbdən təşəkkür etmək istəyirəm.

Tədris karyeram ərzində dünyanın müxtəlif təhsil müəssisələrində çalışmışam, lakin Xəzər Universitetinin mənim üçün xüsusi yeri var. Tələbə və müəllim heyətinin keyfiyyəti və rəhbərliyin mütərəqqi yanaşması sayəsində Xəzər Universiteti qarşılaşdığım ən uğurlu ali təhsil müəssisələrindən biridir.

Uzaqgörən rəhbərliyinizə və tələbələrinizin peşəkar inkişafına, kiçik də olsa, töhfə verməyimə imkan yaratdığınıza görə təşəkkür edirəm. Xəzər Universitetinin təmsil etdiyi dəyərlər məni həqiqətən heyrətləndirir və 2025-ci ilin payızında geri dönməyi səbrsizliklə gözləyirəm.

Bütün kömək və dəstəyinizə görə təşəkkür edirəm.

**Hörmətlə,**
*Natalia Rekhter*
*Dos.Dr., Governor Dövlət Universitetində (ABŞ) Sağlamlıq İdarəetməsi bakalavr proqramının direktoru*

## LETTER OF THANKS TO KHAZAR UNIVERSITY

**To the Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees**
**Hamlet Isakhanli**

Dear Dr. Isakhanli,

I hope this message finds you well. As I approach the conclusion of the first part of my Fulbright award, I find myself reflecting on the incredible journey I've had and want to express my sincere gratitude for your wonderful hospitality and, most importantly, for the opportunity to work at this first-class university.

Throughout my academic career, I have worked in various educational institutions around the globe, but Khazar University stands out to me. The quality of its students and faculty, coupled with the forward-thinking approach of the administration, places it among the most accomplished higher education institutions I have encountered.

Thank you for your visionary leadership and for allowing me to contribute, even in a small way, to the professional development of your students. I am genuinely amazed by what Khazar University represents and look forward to my return in Fall 2025.

Thank you for all your help and support.

**Sincerely,**
*Natalia Rekhter*
*Associate Professor, PhD*
*Director, Bachelor of Health Administration Program in Governors State University (USA)*

## XƏZƏR UNİVERSİTETİ "ELM VƏ ALİ TƏHSİLİN BEYNƏLMİLƏLLƏŞMƏSİ" SAHƏSİNDƏ FƏALİYYƏTİ İLƏ FƏRQLƏNDİYİNƏ GÖRƏ TƏLTİF OLUNUB

## KHAZAR UNIVERSITY AWARDED FOR ITS DISTINGUISHING ACTIVITY IN THE "INTERNATIONALIZATION OF SCIENCE AND HIGHER EDUCATION"

Dekabrın 11-də Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə Ritz-Carlton hotelində "Elm və ali təhsilin beynəlmiləlləşməsi" mövzusunda tədbir keçirilib.

Tədbirdə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova çıxış edərək elm və ali təhsilin beynəlmiləlləşməsi baxımından tədbirin məqsədini və önəmini vurğulayıb.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında ölkə universitetlərinin beynəlxalq reytinqinin yüksəlməsi, universitetlərdə tədqiqat prosesinin stimullaşdırılması, ölkədə elmin inkişafı istiqamətində fəaliyyətin təşkili və digər məsələlərə toxunub.Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Azərbaycanda xarici tələbələrin təhsil almasının ölkələrarası ictimai diplomatiya aləti kimi önəmini vurğulayıb.




*Fatimə Vəliyeva, Fəxrəndə Əfəndiyeva, Günel Bahəddinova*

Tədbir bir neçə mövzu üzrə panel sessiyalarla davam edib.

Sonda təltifetmə mərasimi olub. Xəzər Universitetinə "Elm və ali təhsilin beynəlmiləlləşməsi" sahəsində fəaliyyəti ilə fərqləndiyinə görə təşəkkürnamə verilib.

Tədbirdə Xəzər Universitetindən Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər.

*AZƏRTAC* Dövlət İnformasiya Agentliyi, bəzi saytlar tədbir haqqında xəbər yayımlayıb.

On December 11th, an event on the topic "Internationalization of Science and Higher Education" was organized by the State Agency for Science and Higher Education at the Ritz-Carlton hotel.

At the event, State Agency for Science and Higher Education Director Ulker Sattarova emphasized the purpose and importance of the event from the perspective of internationalization of science and higher education.

Science and Education Minister Emin Amrullayev addressed the increase of university international rankings, stimulation of research processes, organizing activities for science development, and other related issues. Deputy Foreign Minister Yalchin Rafiyev highlighted the importance of foreign students studying in Azerbaijan as a tool of inter-country public diplomacy.

The event continued with panel sessions on several topics.

At the end, an award ceremony was held. Khazar University received a certificate of appreciation for distinguishing itself in the "Internationalization of Science and Higher Education" field.

Participating from Khazar University were: Fakhrada Afandiyeva, Dean of the School of Science and Engineering; Gunel Bahaddinova, Dean of the Graduate School of Science, Arts and Technology; and Fatima Valiyeva, Head of the International Relations Department.

The State Information Agency *AZERTAC* and several websites published news about the event.

*https://azertag.az/xeber/elm_ve_ali_tehsilin_beynelmilellesmesi_movzusunda_tedbir_kechirilib_video-3327011*

# NAİLƏXANIM FONDUNUN TƏSİS ETDİYİ NAİLƏXANIM TƏQAÜDÜ 2024/2025-Cİ TƏDRİS İLİ ÜZRƏ TƏQDİM OLUNDU

# NAILEKHANIM SCHOLARSHIP ESTABLISHED BY NAILEKHANIM FOUNDATION AWARDED FOR 2024/2025 ACADEMIC YEAR



*Dona Nayanathara Ranmalie Amunarawa*

Dekabrın 13-də Xəzər Universitet "Dünya" məktəbində Nailəxanım Fondunun təsis etdiyi Nailəxanım təqaüdünün təqdim olunması mərasimi keçirildi. Tədbirdə Xəzər Universiteti "Dünya" Məktəbi Təhsil Kompleksinin direktoru Aygün Gardiner və əməkdaşları, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, rektor Dos. İradə Xəlilova, fakültə dekanları və departament müdirləri, Britaniya Şurasının Azərbaycan üzrə direktoru Nərgiz Hacıyeva, ölkənin görkəmli elm və mədəniyyət xadimləri, Meksikanın Azərbaycandakı səfirliyi və digər səfirliklərin nümayəndələri iştirak edirdilər.

Tədbirdə Nailəxanım İsayevanın həyat və fəaliyyətinə həsr olunmuş videofilm nümayiş olundu.

Çıxışlardan sonra Xəzər Universiteti "Dünya" Məktəbi Təhsil Kompleksinin direktoru Aygün Gardiner Şri-Lanka vətəndaşı Dona Nayanathara Ranmalie Amunarawa`nın (Layihələrin idarə olunması ixtisası üzrə magistratura təhsili) təqaüdə layiq görüldüyünü bildirdi. Təqaüdçü tələbə Nailəxanım fonduna minnətdarlıq etdi. İştirakçılara konsert proqramı da təqdim olundu.

Qeyd edək ki, görkəmli pedaqoq, təhsil təşkilatçısı, "Dünya" məktəbinin yaradıcısı və qurucusu Nailəxanım İsayevanın xatirəsinə təsis edilən Nailəxanım Fondunun təqaüdü dördüncü dəfə təqdim edildi.

Bəzi media qurumları tədbir haqqında xəbər yayımlayıb.

On December 13, the award ceremony for the Nailekhanim Scholarship, established by the Nailekhanim Foundation, was held at Khazar University "Dunya" School. The event was attended by Aygun Gardiner, Director of Khazar University "Dunya" School Educational Complex and staff, Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Assoc. Prof. Irada Khalilova, Rector, faculty deans and department heads, Nargiz Hajiyeva, Director of the British Council in Azerbaijan, prominent scientists and cultural figures of the country, and representatives from the Mexican Embassy in Azerbaijan and other embassies.

A video film dedicated to the life and work of Nailekhanim Isayeva was screened.

Following the speeches, Aygun Gardiner, Director of Khazar University "Dunya" School Educational Complex stated that Sri Lankan citizen Dona Nayanathara Ranmalie Amunarawa (for Master's degree in Project Management) granted right for scholarship. The scholarship recipient expressed gratitude to the Nailekhanim Foundation. A concert program was also presented to the participants.

It should be noted that this was the fourth time the Nailekhanim Foundation scholarship was awarded, established in memory of Nailekhanim Isayeva, a prominent educator, education organizer, and founder of "Dunya" school.

Several media organizations have reported on the event.

*https://moderator.az/az/foto/834239/azerbaycanda-olan-bu-fond-sri-lankali-xanima-teqaud-verecek/*

## KİTABXANA İNFORMASİYA MƏRKƏZİNDƏ TƏLİM

19 və 21 noyabr tarixlərində Kitabxana İnformasiya Mərkəzinin (KİM) İnformasiya xidmətləri bölməsinin müdiri Samirə Orucova tərəfindən kitabxana işçiləri üçün təlim keçirildi.

## TRAINING AT THE LIBRARY INFORMATION CENTER

On November 19 and 21, training was conducted for library staff by Samira Orujova, Head of the Information Services Department of the Library Information Center (LIC).



*KİM əməkdaşları: Aynurə Babayeva, Şəbnəm Qurbanova, Samirə Orucova, Səkinə Qəmbərova, Ülviyyə Mirişova*

Noyabrın 19-da kitabxana əməkdaşları ilə EBSCOhost platformasının yeni istifadəçi interfeysinin funksiyaları, alətlər panelindən effektiv istifadə, EBSCOhost panelində "Şəxsi qeydlər hesabı"nın yaradılması və ondan istifadə, toplanmış məlumatların saxlanılması, ötürülməsi, tələbələr üçün elektron kitabların hər zaman əlçatanlığı və kitabxananın digər e-resurslarından (Science Direct, Web of Science, OnePetro və s.) istifadə qaydaları müzakirə olundu.

Noyabrın 21-də isə kitabxananın yeni əməkdaşlarına elektron resurslardan istifadə olunması, açar sözlər üzrə məlumatların tapılması, Follett Destiny avtomatlaşdırılmış kitabxana informasiya sistemində yeni iştifadəçi hesabının açılması, elektron kataloqa yeni biblioqrafik resursların daxil edilməsi və istifadəçilərin sorğularının ödənilməsi üçün tövsiyə olunası mənbələr haqqında izahat verildi.

On November 19, library staff discussed topics such as new user interface features of the EBSCOhost platform, effective use of the tools panel, creating and using a "Personal Notes Account" in the EBSCOhost panel, storing and transferring collected data, ensuring constant accessibility of electronic books for students and usage guidelines for other e-resources of the library (Science Direct, Web of Science, OnePetro, etc.) were discussed.

On November 21, explanations were provided for new library staff on using electronic resources, finding information using keywords, opening a new user account in the Follett Destiny automated library information system, incorporating new bibliographic resources into the electronic catalog and recommended sources for meeting user queries.

## DEPARTAMENT MÜDİRİ LİTVADAKI UKRAYNALI QAÇQINLARA HƏSR OLUNMUŞ FOTOSƏRGİDƏ



Noyabrın 22-də Bakıda Litva və Ukraynanın Azərbaycandakı səfirliklərinin birgə təşəbbüsü ilə Bakıda "NOT ALL OF THEM: Litvadakı ukraynalı qaçqınların fotosərgisi" təşkil olunub. Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasova Litva səfirliyinin dəvəti ilə sərgidə iştirak edib.

Sərgidə Ukraynadan Litvaya üz tutmuş müharibə qaçqınlarının ağ-qara təsvirlərinin yer aldığı 27 foto və onların hekayələri nümayiş olundu. Bu fotolar istedadlı litvalı fotoqraf Antanas Sutkus ilə birgə həmkarları Artūras Morozovas və Tadas Kazakevičius tərəfindən çəkilmişdir. Təqdim olunan hekayələrin əksəriyyəti "Ora qayıtmaq istəyirəm", yaxud "Tezliklə oraya qayıdacağam" sözləri ilə tamamlanırdı.

Sərginin əsas məqsədi cəmiyyətin diqqətini Ukraynada 2 ildən çox davam edən müharibəyə cəlb etmək və oradakı insanların real həyat hekayələrini ortaya çıxarmaqdan ibarət idi.

## DEPARTMENT HEAD AT THE PHOTOGRAPHIC EXHIBITION DEDICATED TO UKRAINIAN REFUGEES IN LITHUANIA

On November 22, the Embassy of the Republic of Lithuania in Azerbaijan and the Embassy of Ukraine in Azerbaijan jointly organized the exhibition "NOT ALL OF THEM: Photo Exhibition of Ukrainian Refugees in Lithuania" in Baku. Milana Abbasova, Head of the Department of English Language and Literature at Khazar University, participated in the exhibition upon the invitation of the Lithuanian Embassy.

The exhibition featured 27 black-and-white photographs and stories depicting war refugees who fled from Ukraine to Lithuania. These photos were taken by talented Lithuanian photographer Antanas Sutkus together with his colleagues Artūras Morozovas and Tadas Kazakevičius. Most of the presented stories concluded with phrases like "I want to go back" or "I will return there soon".

The main purpose of the exhibition was to draw society's attention to the war in Ukraine, which has been ongoing for over 2 years, and to reveal the real-life stories of people there.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YARADILMASININ 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ ELMİ SEMİNAR

## SCIENTIFIC SEMINAR DEDICATED TO THE 100TH ANNIVERSARY OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Noyabrın 26-da Xəzər Universitetində Tarix və arxeologiya departamentinin müəllimi Laçın Mustafayev tərəfindən tələbələrə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyinə həsr olunmuş "Milli Azərbaycan Tarixi Muzeyinin Son Tunc-İlk Dəmir dövrünə aid Naxçıvan kolleksiyası" adlı elmi seminar keçirilmişdir.

On November 26, a scientific seminar titled "National Azerbaijan History Museum's Nakhchivan Collection from the Late Bronze-Early Iron Age" was conducted at Khazar University by Lachin Mustafayev, an instructor from the Department of History and Archaeology, dedicated to the 100th anniversary of the establishment of the Nakhchivan Autonomous Republic.




## SEMİNAR: "İSLAM DÜNYASININ MƏDƏNİYYƏT PAYTAXTI ŞUŞA"

Noyabrın 27-də Xəzər Universitetində Tarix və arxeologiya departamentinin müəllimi Nurlan Nəsirov tərəfindən tələbələrə Şuşa şəhərinin 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə bağlı seminar keçirilmişdir. Müəllim işğaldan azad olunduqdan sonra Şuşa şəhərində görülən işlər, şəhərin İslam dünyasının mədəniyyət paytaxtına çevrilməsi ilə bağlı tədbirlər haqqında tələbələrə ətraflı məlumat vermişdir.

Seminarın sonunda tələbələrlə birlikdə müzakirələr aparılmışdır.

## SEMINAR: "SHUSHA - CULTURAL CAPITAL OF THE ISLAMIC WORLD"

On November 27, Nurlan Nasirov, a lecturer from the Department of History and Archaeology at Khazar University, conducted a seminar for students about Shusha being declared the cultural capital of the Islamic world for 2024. The lecturer provided students with detailed information about the works carried out in Shusha since its liberation from occupation and the measures related to its transformation into the cultural capital of the Islamic world.

At the end of the seminar, discussions were held with the students.

## İNFORMASİYA TEXNOLOGİYALARI DEPARTAMENTİNİN ƏMƏKDAŞLARI *AZTV*-DƏ

Xəzər Universitetinin İnformasiya texnologiyaları departamentinin direktoru Fərid Musayev noyabrın 28-də *AZTV*-də MEDİALAB verilişinin qonağı olub. Verilişin mövzusu kiberdələduzluğa qarşı mübarizə üsullarına aid idi.

Fərid Musayev mövzu çərçivəsində kiber təhlükəsizliklə bağlı ətraflı məlumat verib. Departamentin əməkdaşı Nicat Abdullayev isə bank kartlarına edilən kiberdələduzluqla bağlı müsahibə verib.

## INFORMATION TECHNOLOGY DEPARTMENT STAFF ON *AZTV*

Farid Musayev, Director of the Information Technology Department at Khazar University, was a guest on the MEDIALAB program on *AZTV* on November 28. The show's topic was about methods of combating cybercrime.

Farid Musayev provided detailed information about cybersecurity within the framework of the topic. Department employee Nijat Abdullayev also gave an interview about cyber fraud related to bank cards.

More detailed information about the topic can be found at the following link:

***https://www.youtube.com/watch?v=6JUi3BhSlHk&list=PLmtwiVV8vh-40ixg2whF_Z3l2_fUxeJqM***

## DIRNA: "TƏDQİQAT METODLARI" MÖVZUSUNDA TƏLİM

## DIRNA: TRAINING ON "RESEARCH METHODS"

Noyabrın 27-28-də Xəzər Universitetinin koordinatoru olduğu, Avropa Komissiyası tərəfindən maliyyələşən "Azərbaycanda İnstitusional Repozitoriyalar şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı" (DIRNA) adlı layihəsi çərçivəsində "Tədqiqat metodları" adlı təlim keçirildi.

Təlimdə Azərbaycanın 7 tərəfdaş ali təhsil müəssisəsindən nümayəndələr iştirak edirdi.

Xəzər Universitetində təşkil olunan təlimin birinci günü İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva tərəfindən aparıldı. O, təlimin tədqiqat dizaynı, tədqiqatda etik prinsiplər və ədəbiyyat icmalı haqqında məlumat verdi.

Təlimin ikinci günü isə Həyat elmləri departamentinin dosenti Cavid Ocaqi "Keyfiyyət tədqiqatı", "Elmi metod" (misal ilə), "Eksperimental dizaynlar", "Elmdə fərziyyələri necə sınayırıq" adlı mövzular haqqında məlumat verdi.



*Raziyə İsayeva*

On November 27-28, a training on "Research Methods" was conducted within the framework of the "Developing Research Capacity through Institutional Repository Network in Azerbaijan" (DIRNA) project, which is coordinated by Khazar University and financed by the European Commission.

Representatives from 7 higher education institutions in Azerbaijan attended the training.

The first day of the training, organized at Khazar University, was led by Dr. Raziya Isayeva, Dean of the School of Economics and Management. She provided information about research design, ethical principles in research, and literature review.

On the second day, Associate Professor Javid Ojagi from the Department of Life Sciences gave information on topics including "Qualitative Research", "Scientific Method" (with examples), "Experimental Designs", and "How We Test Hypotheses in Science".



# MÜƏLLİM VƏ TƏLƏBƏLƏR ZƏRGƏRPALAN HAMAMINDA EKSPEDİSİYADA

# LECTURERS AND STUDENTS ON EXPEDITION AT ZARGARPALAN BATHHOUSE

Noyabrın 29-da Xəzər Universitetinin tərəfdaş olduğu Erasmus+ PICASP layihəsi çərçivəsində MIRAS İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlillinin rəhbərliyi ilə Xəzər Universitetinin müəllim və tələbələri (Turizm işinin təşkili ixtisası) üçün Bakı şəhərindəki Zərgərpalan hamamında aparılan tədqiqat sahəsində arxeoloji ekspedisiya təşkil edilmişdir.

Ekspedisiya zamanı iştirakçılar üçün əvvəlcə hamam üzrə ekskursiya keçirilmiş, hamamın tarixi, tikildiyi memarlıq üslubu, orada aparılan işlər, ortaya çıxan nəticələr və əldə olunan tapıntılar barədə onlara geniş məlumat verilmişdir. Sonra iştirakçılara hamamın konservasiyası üzrə işlərin necə aparıldığı, konservasiya zamanı istifadə olunan materiallar, onların növləri və tərkibi, hazırlanma və istifadə qaydaları, arxeoloji abidələrin konservasiya və bərpası zamanı əməl edilməsi vacib olan qaydalar və digər məqamları əhatə edən təlim keçirilmişdir. Ekspedisiyanın üçüncü hissəsində iştirakçılar əldə etdikləri biliklər əsasında və tədqiqat sahəsində çalışan mütəxəssislərin nəzarəti altında abidənin konservasiyasında iştirak etmişlər.

On November 29, within the framework of the Erasmus+ PICASP project, to which Khazar University is a partner, an archaeological expedition was organized for lecturers and students (Tourism Management specialty) of Khazar University under the leadership of Fariz Khalilli, President of the MIRAS Public Association and Ph.D. in History, at the research site of the Zargarpalan bathhouse in Baku. During the expedition, participants first participated in a tour of the bathhouse, with comprehensive information provided about its history, architectural style, ongoing work, resulting outcomes, and discovered artifacts. Subsequently, a training session was conducted covering how conservation work is carried out in the bathhouse, the materials used in conservation, their types and composition, preparation and usage guidelines, and essential rules to be followed during the conservation and restoration of archaeological monuments. In the third part of the expedition, participants took part in the monument's conservation under the supervision of specialists working at the research site, drawing upon the knowledge they had acquired.

# XƏZƏR UNİVERSİTETİNİN ƏCNƏBİ DOKTORANTI TEXNİKA ELMLƏRİ ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMIŞDIR

Xəzər Universitetinin Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin və Kompüter elmləri departamentinin 1203.01- "Kompüter elmləri" ixtisası üzrə əcnəbi doktorantı Mohammad Ali Mofleh Al-Qudah`a Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən texnika elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir.

Qeyd edək ki, doktorant Mohammad Ali Mofleh Al-Qudah 3 may 2024-cü il tarixində AR ETN İdarəetmə Sistemləri İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.20 qeydiyyat nömrəli Dissertasiya Şurasında "Süni intellekt texnologiyalarının e-hökumətdə vətəndaş xidmətləri üçün tətbiqi" mövzusunda dissertasiya işini müdafiə etmişdir.

# FOREIGN PHD STUDENT OF KHAZAR UNIVERSITY RECEIVES PHD IN TECHNICAL SCIENCES

A foreign doctoral student from Khazar University's Graduate School of Science, Art and Technology and Technology and Department of Computer Science, Mohammad Ali Mofleh Al-Qudah, has been awarded a PhD in Technical Sciences by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan. It should be noted that doctoral student Mohammad Ali Mofleh Al-Qudah defended his dissertation titled "Application of Artificial Intelligence Technologies for Citizen Services in E-Government" on May 3, 2024, at the Dissertation Council (ED 1.20 registration number) operating under the Institute of Control Systems of the Azerbaijan National Academy of Sciences.

## ƏCNƏBİ TƏLƏBƏLƏR AĞACƏKMƏ AKSİYASINDA

Noyabrın 30-da COP29-un Azərbaycanda keçirilməsi və 2024-cü ilin ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə Abşeron yarımadasında keçirilən növbəti ağacəkmə aksiyasına Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi (EATDA) də qoşulub. EATDA-nın dəvəti ilə ağacəkmə aksiyasına Xəzər Universitetində təhsil alan əcnəbi tələbələr də qatılıblar.

Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyevanın rəhbərliyi ilə universitetin bir qrup nümayəndəsi – Natia Popkhadze (Gürcüstan), Chainreshram Praburam və Rubasini Praburam (Malayziya), Emmanuella Esinam (Qana), Apisada Laowattanabhongse (Tailand), Azada Hakimi (Əfqanıstan), Medina Nuralina (Qazaxıstan) və Çayınraşa Prabura (Tailand) iştirak ediblər.

## FOREIGN STUDENTS PARTICIPATE IN TREE PLANTING CAMPAIGN

On November 30, in connection with COP29 being held in Azerbaijan and the declaration of 2024 as the "Year of Solidarity for a Green World", the State Agency for Science and Higher Education (SASHA) joined the tree planting campaign organized by the Ministry of Ecology and Natural Resources on the Absheron Peninsula. Foreign students studying at Khazar University were also invited to participate in the tree planting campaign by SASHA.

Under the leadership of Fatima Valiyeva, head of the International Relations Department of Khazar University, a group of university representatives participated, including Natia Popkhadze (Georgia), Chainreshram Praburam and Rubasini Praburam (Malaysia), Emmanuella Esinam (Ghana), Apisada Laowattanabhongse (Thailand), Azada Hakimi (Afghanistan), Medina Nuralina (Kazakhstan), and Chayinrasha Prabura (Thailand).



*Natia Popkhadze (Gürcüstan), Fatimə Vəliyeva, Emmanuella Esinam (Qana), Azada Hakimi (Əfqanıstan), Rubasini Praburam (Malayziya), Apisada Laowattanabhongse (Tailand), Çayınraşa Prabura (Tailand)*

# "XƏZƏR"İN ƏMƏKDAŞLARI QAZAXISTAN UNİVERSİTETLƏRİNDƏ
# "KHAZAR" STAFF AT KAZAKHSTANI UNIVERSITIES

Noyabrın 18-22-də Xəzər Universiteti Tarix departamentinin müəllimi Nurlan Nəsirov və İnkişaf Mərkəzinin layihə meneceri Səbinə Quluyeva ERASMUS+ PICASP layihəsi çərçivəsində Qazaxıstanın Yessenov Universiteti və Beynəlxalq Biznes Universitetində olublar. Qeyd edək ki, PICASP layihəsinin (Xəzər regionunun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən təcrübə müəssisələri pilot kursları) əsas məqsədləri təcrübə müəssisəsi ilə yeni tədris metodları hazırlamaq, sahibkarlıq və KOB-ların idarə edilməsi üzrə kurslar təşkil etmək, Avropa İttifaqı tərəfdaşları ilə təcrübə mübadiləsini artırmaq və maraqlı tərəflərin kurikulumların hazırlanmasında və məzunların məşğulluğunda iştirakını təmin etməkdir.

Tədbirin əsas məqsədi 4 il ərzində həyata keçirilən layihənin sonunda əldə edilən nəticələrin hesabatının təqdim olunması idi. Görüş zamanı tərəfdaş universitet nümayəndələri kampusla və PICASP otağı ilə tanış olmuşlar. Qazaxıstanın hər 2 universitetində görülən işlər, yaradılan MOOC təlimləri (kütləvi açıq onlayn kurslar), universitet+müəssisə əməkdaşlığı, istehsalat müəssisələri təcrübəsi və s. haqqında geniş məlumat verilib. Tədbir çərçivəsində iştirakçılar üçün Qazaxıstan Respublikasının Dövlət Muzeyi, Şimbulak-Medeu dağ-xizək kompleksi və Tanbalı qayaüstü təsvirlər muzey-qoruğuna tanışlıq səfərləri təşkil olunub.

On November 18-22, Nurlan Nasirov, a lecturer from the History Department of Khazar University, and Sabina Guluyeva, a project manager from the Development Center, visited Yessenov University and the International Business University in Kazakhstan within the framework of the ERASMUS+ PICASP project. It should be noted that the main objectives of the PICASP project (pilot courses for practice enterprises implementing university-industry cooperation to support the development of the Caspian region) are to develop new teaching methods with practice enterprises, organize courses on entrepreneurship and SME management, increase experience exchange with European Union partners, and ensure stakeholder participation in curriculum development and graduate employment. The main purpose of the event was to present the report of results achieved at the end of the four-year project. During the meeting, representatives of partner universities familiarized themselves with the campus and the PICASP room. Comprehensive information was provided about the work done at both Kazakhstani universities, created MOOC trainings (massive open online courses), university-enterprise collaboration, industrial practice experiences, and other relevant aspects. Within the framework of the event, participants were also organized study visits to the State Museum of the Republic of Kazakhstan, the Shymbulak-Medeu mountain ski complex, and the Tamgaly rock art museum-reserve.



*Ön cərgədə soldan Səbinə Quluyeva, arxa cərgədə sağda Nurlan Nəsirov*

## XƏZƏR UNİVERSİTETİNDƏ BİRLƏŞMİŞ NÜVƏ TƏDQİQATLARI İNSTİTUTUNUN SEMİNARI

## SEMINAR OF THE JOINT INSTITUTE FOR NUCLEAR RESEARCH AT KHAZAR UNIVERSITY





*Cəmalə Eldarova*

Noyabrın 26-27-də Xəzər Universitetində Rusiyanın Dubna şəhərində yerləşən Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (BNTİ) alimlərinin iştirakı ilə seminar keçirildi. Seminarda Xəzər Universitetinin professor-müəllim heyəti, gənc tədqiqatçılar, həmçinin müxtəlif universitetlərin və elmi - tədqiqat institutlarının rəhbərləri iştirak etdilər.

*(Ardı səh.22-də)*

On November 26-27, a seminar was held at Khazar University with the participation of scientists from the Joint Institute for Nuclear Research (JINR) located in the city of Dubna, Russia. The seminar was attended by professors and faculty members of Khazar University, young researchers, as well as leaders from various universities and research institutes.

*(To be continued page 22)*






*Hamlet İsaxanlı, Qriqoriy Trubnikov*

Seminardan əvvəl Xəzər Universiteti ilə BNTİ arasında protokol görüşü təşkil edilmiş və əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

Seminarı Təbiət elmləri departamentinin müdiri Cəmalə Eldarova açaraq, tədbirə moderatorluq etmişdir.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açılış nitqində universitetin tarixi, nailiyyətləri və beynəlxalq əməkdaşlıq imkanları haqqında geniş bəhs etmişdir. Sonra BNTİ-nin direktoru, akademik Qriqoriy Trubnikov institutun fəaliyyəti və həyata keçirilən geniş miqyaslı elmi tədqiqatlar haqqında ətraflı məlumat vermişdir.

Before the seminar, a protocol meeting was organized between Khazar University and JINR, and collaboration perspectives were discussed.

Seminar was opened by Camala Eldarova, head of the School of Science and moderated the event.

In his opening speech, Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, spoke extensively about the university's history, achievements, and international cooperation opportunities. Subsequently, JINR Director, Academician Grigory Trubnikov, provided detailed information about the institute's activities and large-scale scientific research being conducted. Professor Soodabeh Davaran, Director of the Khazar University Engineered



*Norbert Kucerka*



*Yuriy Severyuxin*



*Aleksandr Buqay*

Xəzər Universiteti Mühəndislik Biomaterillar Tədqiqat Mərkəzinin direktoru Prof. Soodabeh Davaran çıxışında belə elmi tədbirlərin böyük əhəmiyyətini vurğulamışdır.

Seminar zamanı Xəzər Universiteti ilə BNTİ arasında elmi sahədə əməkdaşlığın gücləndirilməsini nəzərdə tutan mühüm bir əməkdaşlıq müqaviləsi imzalanmışdır. Bu müqavilə gələcəkdə birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi, eləcə də universitetlər və institutlar arasında qarşılıqlı təcrübə mübadiləsinin təşviqi kimi məsələləri əhatə edərək, yerli və qlobal səviyyədə birgə tədqiqatlar üçün yeni imkanlar açacaqdır.



*Mixail Zarubin*

Seminarın ilk günündə Dr. Aleksandr Buqay və Dr. Norbert Kucerka radiobiologiya və radiasiyanın tibbdə tətbiqləri haqqında iştirakçılara geniş məlumat vermişdilər. İkinci gün isə Dr. Yuriy Severyuxin və Mixail Zarubin fiziki-kimyəvi streslərə tolerantlığın və radiorezistentliyin molekulyar mexanizmləri haqqında təqdimatlarla çıxış etmişlər.

Tədbirin sonunda iştirakçı alimlərə Xəzər Universitetinin rektoru Dr. İradə Xəlilova tərəfindən sertifikatlar təqdim olunmuşdur.

Biomaterials Research Center, emphasized the great importance of such scientific events in her remarks.

During the seminar, a significant cooperation agreement was signed between Khazar University and JINR, aimed at strengthening scientific collaboration. This agreement will cover joint scientific research projects and promote mutual experience exchange between universities and institutes, opening up new opportunities for collaborative research at local and global levels.



*Soodabeh Davaran*

On the first day of the seminar, Dr. Aleksandr Bugay and Dr. Norbert Kucerka provided comprehensive information to participants about radiobiology and radiation applications in medicine. On the second day, Dr. Yuriy Severyukhin and Mikhail Zarubin presented on molecular mechanisms of tolerance to physiochemical stresses and radioresistance.

At the end of the event, certificates were presented to the participating scientists by Khazar University Rector Dr. Irada Khalilova.



*Nazim Hüseynov*

## DEPARTAMENT MÜDİRİ TRT WORLD FORUM 2024-DƏ

## DEPARTMENT HEAD PARTICIPATES IN TRT WORLD FORUM 2024

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev bu il səkkizinci dəfə təşkil olunan və dünyanın nüfuzlu tədbirlərindən olan TRT WORLD FORUM-da iştirak etmişdir. Forum TRT WORLD kanalının təşkilatçılığı ilə 2024-cü il noyabrın 29-30-da keçirilərək, "Qırılma nöqtəsində dünya: böhran və dəyişikliklərin idarə olunması" mövzusuna həsr olunmuşdu.



*Orxan Vəliyev, TRT WORLD-ün əməkdaşı Şeymanur Yönt Gökçen, STEM Analitik Mərkəzinin direktoru Orxan Yolçuyev*

Forumun açılışı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dərin məzmunlu çıxışı ilə gerçəkləşmişdir. Ardınca xüsusi qonaqların nitqləri və tematik panellərlə davam edən forum dünyanın müxtəlif ölkələrindən olan mütəxəssisləri, siyasətçiləri və akademikləri bir araya gətirmişdir. Forumun ikinci günündə Türkiyənin xarici işlər naziri Hakan Fidanın iştirakı ilə mühüm müzakirələr aparılmışdır.

Dos. Orxan Vəliyev "Mərkəzi Asiya və Qafqaz" mövzusuna həsr olunmuş paneldə spiker qismində çıxış etmişdir. Panelin işinə Türk Dövlətləri Təşkilatı (TDT), Özbəkistan Xarici İşlər Nazirliyi və digər regional təşkilatlardan yüksək səviyyəli nümayəndələr qatılmışlar. Müzakirələr zamanı Azərbaycan Prezidenti İlham Əliyevin "Bizim ailəmiz Türk Dünyasıdır" sözləri xüsusilə vurğulanmış və Türk dövlətləri arasındakı birlik mövzusunda geniş fikir mübadiləsi aparılmışdır.

Dos. Vəliyev öz çıxışında Prezident İlham Əliyevin Bişkek Sammitində (2024) səsləndirdiyi təşkilatın büdcəsinin onun qarşıya qoyduğu strateji hədəfləri həyata keçirmək üçün kifayət etməməsi fikrini xatırlatmış və bu istiqamətdə lazımi addımların atılmasının vacibliyini qeyd etmişdir.

Forum qlobal böhranlar və dəyişikliklərin effektiv idarə olunması mövzusunda beynəlxalq əməkdaşlıq üçün platforma rolunu oynamaqla yanaşı, Türk Dünyasının gələcək perspektivlərini müzakirə etmək üçün mühüm imkan yaratmışdır.

Associate Professor Orkhan Valiyev, Head of the Department of Political Sciences and Philosophy, participated in the TRT WORLD FORUM, one of the world's prestigious events, which was held for the eighth time this year. The forum, organized by TRT WORLD channel on November 29-30, 2024, was dedicated to the theme "The World at a Breaking Point: Managing Crises and Changes".

The forum's opening was realized with a profound speech by the President of the Republic of Türkiye, Recep Tayyip Erdoğan. Continuing with speeches by special guests and thematic panels, the forum brought together specialists, politicians, and academics from various countries around the world. On the forum's second day, significant discussions were held with the participation of Türkiye's Minister of Foreign Affairs, Hakan Fidan.

Assoc. Prof. Orkhan Valiyev spoke as a speaker in the panel dedicated to the topic "Central Asia and the Caucasus". The panel was attended by high-level representatives from the Turkic States Organization (TDT), the Ministry of Foreign Affairs of Uzbekistan, and other regional organizations. During the discussions, President Ilham Aliyev's words "Our family is the Turkic World" were particularly emphasized, and extensive exchanges of opinion were held on the topic of unity among Turkic states.

In his speech, Assoc. Prof. Valiyev recalled President Ilham Aliyev's point raised at the Bishkek Summit (2024) that the organization's budget is insufficient to implement its strategic objectives and noted the importance of taking necessary steps in this direction.

The forum not only served as a platform for international cooperation on managing global crises and changes but also created a significant opportunity to discuss the future perspectives of the Turkic World.

# DİSLEKSİYA HAQQINDA MAARİFLƏNDİRİCİ TƏLİM

# EDUCATIONAL TRAINING ON DYSLEXIA






*Anara Quliyeva*

Dekabrın 2-də Xəzər Universitetində Psixologiya departamentinin koordinatoru Mələk Kərimovanın təşkilatçılığı ilə "Psixoklinik" mərkəzinin rəhbəri və Xəzər Universitetinin məzunu olan Anara Quliyeva ilə birgə disleksiya mövzusunda maarifləndirici təlim keçirildi. Təlimin əsas məqsədi öyrənmə çətinliyi yaşayan uşaqlarla işləyən pedaqoq, psixoloq və defektoloqların maarifləndirilməsi və bu sahədə yeni təlim metodlarının öyrənilməsindən ibarət oldu.

Təlimdə uşaq psixoloqu Anara Quliyeva disleksiyanın müalicəsində oyun terapiyasının tətbiqinin faydalarını və düzgün metodların necə işlədiyini izah etdi. Oyun terapiyasının, uşaqlara təhsil prosesində özlərinə inam qazandırmaqla yanaşı, müalicəni daha əyləncəli və effektiv hala gətirdiyini vurğuladı.

Psixoloq Mələk Kərimova isə disleksiyalı uşaqların ailələrində qarşıya çıxan münasibət çətinlikləri və müəllimlərin bu uşaqlara yanaşmalarında edilən səhvlər barədə danışdı. Onun sözlərinə görə, disleksiya ilə bağlı yanlış təsəvvürlər və stereotiplər uşaqların inkişafını məhdudlaşdıra bilər. Müəllimlər və valideynlər bu cür uşaqlara qarşı empatiya ilə yanaşmalı, onlara xüsusi dəstək və anlayış göstərməlidirlər.

Təlimə Bakı və regionlardan gələn pedaqoq, psixoloq və defektoloqlar çoxsaylı suallar verərək, müzakirələrə qoşuldular.

On December 2, an educational training on dyslexia was held at Khazar University, organized by Malak Karimova, coordinator of the Psychology Department, in collaboration with Anara Guliyeva, head of the "Psychoclinic" center and a Khazar University graduate. The primary goal of the training was to educate educators, psychologists, and defectologists working with children experiencing learning difficulties and to learn new training methods in this field.

During the training, child psychologist Anara Guliyeva explained the benefits of applying play therapy in dyslexia treatment and how correct methods work. She emphasized that play therapy not only helps children gain confidence in the educational process but also makes treatment more enjoyable and effective.

Psychologist Malak Karimova spoke about the relationship difficulties in families with dyslexic children and the mistakes teachers make when approaching these children. According to her, misconceptions and stereotypes about dyslexia can limit children's development. Teachers and parents should approach such children with empathy, providing them with special support and understanding.

Pedagogues, psychologists, and defectologists from Baku and the regions actively participated in the training, asking numerous questions and engaging in discussions.

## BARTIN UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

Türkiyənin Bartın Universitetinin nümayəndələri - Beynəlxalq əlaqələr və texnolji layihələr üzrə prorektor Prof. Dr. Mehmet Zahmakıran, Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri və Təhsil fakültəsinin dekan köməkçisi Dos. Dr. Ahmet Yirmibeş, rektor köməkçisi Turgay Delialioğlu və PR Ofisinin rəhbəri Mehmet Ceyaln Erasmus+ Tələbə və İşçi Heyətinin Mübadilə Proqramı (Erasmus+ K171) çərçivəsində 2024-cü il dekabrın 2-3-də Xəzər Universitetində oldular.

## BARTIN UNIVERSITY REPRESENTATIVES AT "KHAZAR"

Representatives from Türkiye's Bartın University - Pro-Rector for International Relations and Technological Projects Prof. Dr. Mehmet Zahmakıran, Head of International Relations Department and Assistant Dean of the Faculty of Education Asst. Prof. Dr. Ahmet Yirmibeş, Rector's Assistant Turgut Delialioğlu, and PR Office Head Mehmet Ceylan visited Khazar University on December 2-3, 2024, within the framework of the Erasmus+ Student and Staff Exchange Program (Erasmus+ K171).



*Turgay Delialioğlu, Ahmet Yirmibeş, Mehmet Ceyaln, Mehmet Zahmakıran*



*İradə Xəlilova*

Səfərin ilk günü Bartın Universitetinin nümayəndə heyəti və Xəzər Universitetinin nümayəndə heyəti arasında görüş keçirildi. Xəzər Universiteti tərəfindən görüşdə rektor Dos. İradə Xəlilova, Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev, Elm, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Dr. Günel Bahəddinova, İqtisadiyyat və menecment fakültəsinin dekanı və İnkişaf Mərkəzinin direkroru Dr. Raziyə İsaeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı vəzifəsini icra edən Aygün Verdiyeva, Təhsil departamentinin koordinatoru Günay Qasımova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, koordinatorları Jalə Məmmədova və İlqarə Abdullayeva iştirak etdilər.

Görüş zamanı hər iki tərəfin təqdimatından sonra qarşılıqlı tələbə və işçi heyəti mübadiləsi məsələləri və müştərək tədqiqatlar mövzusunda müzakirələr aparıldı və razılıq əldə olundu.

Görüşün sonunda Bartın Universitenin nümayəndə heyətinə hədiyyələr təqdim edildi.

Proqrama uyğun olaraq Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərlinin müşayiəti ilə qonaqlar mərkəzin fəaliyyəti ilə tanış oldular.

On the first day of the visit, a meeting was held between the delegations of Bartın University and Khazar University. From Khazar University, the meeting was attended by Rector Associate Professor Irada Khalilova, Pro-Rector for Academic Affairs Prof. Muhammad Nuriyev, Dean of the Graduate School of Science, Arts and Technology Dr. Gunel Bahaddinova, Dean of the School of Economics and Management and Director of the Development Center Dr. Raziya Isayeva, Acting Dean of the School of Humanities, Education and Social Sciences Aygun Verdiyeva, Department of Education Coordinator Gunay Gasimova, Head of International Relations Department Fatimah Valiyeva, and coordinators Jala Mammadova and Ilgara Abdullayeva.

After presentations from both sides, discussions were held and agreements reached on student and staff exchange and joint research.

At the end of the meeting, gifts were presented to the Bartın University delegation.

According to the program, accompanied by Deputy Director of the Library Information Center Aytaj Misgarly, the guests became familiar with the center's activities. At the Nailekhanim Cultural Center, they



*Fatimə Vəliyeva, Fəxrəndə Əfəndiyeva, Günel Bahəddinova*

Nailəxanım Mədəniyyət Mərkəzində onlara görkəmli pedaqoq Nailəxanım İsayevanın həyat və fəaliyyətini əks etdirən eksponatlar haqqında ətraflı məlumat verildi. Sonra Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar qonaqları departament və laboratoriyanın işi tanış etdi.

Növbəti gün isə Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Pərvin Kərimova ilə, Xəzər Universitetinin Nərimanov korpusunda və "Dünya" məktəbində görüşlər keçirildi. Sonra qonaqlar Jalə Məmmədova ilə Şəhidlər Xiyabanını ziyarət etdilər və İçərişəhərdə ekskursiyada oldular.

were provided detailed information about exhibits reflecting the life and work of prominent educator Nailekhanim Isayeva.

Afterwards, Head of the Department of Physics and Electronics Farida Tatardar introduced the guests to the department and laboratory.

The next day, meetings were held with Deputy Dean of the School of Humanities, Education and Social Sciences Parvin Karimova, at the Khazar University Narimanov Campus and "Dunya" School. Later, the guests visited the Martyrs' Alley with Jala Mammadova and went on an excursion in the Old City.



# "ÜÇÜNCÜ TÜRKÇÜLÜK ÇALIŞMALARI" KONFRANSI

Dekabrın 3-də Xəzər Universiteti və Türkçü Düşüncə Birliyinin əməkdaşlığı ilə universitetin Mərmər zalında "Üçüncü türkçülük çalışmaları" konfransı keçirildi.



Hamlet İsaxanlı



Giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı çıxış etdi. O, "tarix şüurunun millətlərin həyatında çox mühüm rola sahib olduğunu"  qeyd edərək, Azərbaycan və Qafqaz tarixinin problemləri və s. haqda geniş şəkildə fikirlərini bildirdi, konfransa öz işində uğurlar dilədi.



Cəfər Cəfərli

Prof. Nəsib Nəsibli və "Prof. Zeki Velidi Togan" adına 1-ci oturumun sədri, Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman

# "THIRD TURKISM STUDIES" CONFERENCE

On December 3, the "Third Turkism Studies" conference was held in the Marble Hall of Khazar University, in collaboration with the Turkist Thought Union.

The opening speech was delivered by Khazar University's founder and Chairman of the Board of Directors, Prof. Academician Hamlet Isakhanli. He noted that "historical consciousness plays a very important role in the lives of nations", extensively shared his thoughts on the problems of Azerbaijani and Caucasian history, and wished the conference success.



Yasəmən Qaraqoyunlu

After short speeches by Prof. Nasib Nasibli and Assoc. Prof. Telman Nusretoglu, Chairman of the 1st session named after "Prof. Zeki Velidi Togan", Head of the Department of History and Archaeology,



*Sabir Rüstəmxanlı*

Nusrətoğlunun qısa çıxışından sonra məruzələr başlandı.

Prof. Nəsib Nəsiblinin "Tariximizin fəlsəfəsi", Xalq şairi Sabir Rüstəmxanlının "Tarix bizə niyə



*Odər Qutluər*

lazımdır?", Telman Nüsrətoğlunun "Müstəmləkə paradiqmalarından arınma", tarixçi Odər Qutluərin "Tarixdə türkçülük gərəyi!" başlıqlı məruzələrindən sonra, Güney Azərbaycandan Əli



*Azad Qaradərəli*

(*Ardı səh.30-da)*



*Fazil Mustafa*

the presentations began.

The first section included presentations by Prof. Nasib Nasibli on "Philosophy of Our History", People's Poet Sabir Rustamkhanli on "Why Do We Need History?", Telman Nusratoghlu on "Decolonization Paradigms", and historian Oder Gutluer on "The Necessity of Turkism in History!" A video featuring Ali Babazadeh from South Azerbaijan on "Anti-Turkish Persian Chauvinist History" was also shown,



*Telman Nüsrətoğlu*

concluding the first section.

The second session, named after the prominent historian Suleyman Aliyarli, featured Prof. Dr. Abdullah Gundogdu's presentation on "Steppe/ Turkish - Iran/Persian Relations".

MP Dr. Fazil Mustafa spoke about "Turkism in the Unchanging Ideological Understanding of History", historian Akbar N. Najaf discussed "Apolitical State - The Generality of Power in Turkish State Thinking", and Prof. Konuralp Ercilasun (online) presented on "How Periods Should Be in General

(*To be continued page 30*)

Babazadənin "İranda türklər əleyhinə fars şovinist tarixi" məruzəsini əhatə edən videoçarx izlənildi. Bununla ilk bölüm sona çatdı.

Görkəmli tarixci "Süleyman Əliyarlı" adına ikinci oturumda Prof.Dr Abdullah Gündogdunun "Bozkır/Türk - İran/Fars ilişkiləri üzərinə" adlı məruzəsi dinlənildi.

Millət vəkili Dr. Fazil Mustafa "Dəyişməyən ideoloji tarix anlayışında türkçülük mövzusu", tarixçi Əkbər N. Nəcəf "Apolitik dövlət - Türk dövlət ağlında gücün ümumiliyi", Prof. Konuralp Ercilasun (onlayn formatda) "Ümumtürk tarixində



*Rüfət Muradlı*

dövrlər necə olmalıdır?" başlıqlı məruzələrini konfrans iştirakçılarına təqdim etdilər.

Dos. Boran Əziz və Caner Karanın çıxışından sonra Güney Azərbaycandan tanınmış yazar Həsən Raşidinin "İranda Azərbaycan türklərinin çətin veziyyəti: Pəhləvi hakimiyyəti dövründə və indi" adlı videoçarxı izlənildi.

Daha sonra Yasəmən Qaraqoyunlu "Azərbaycan tarixçiliyində haçalanma: "coğrafiya, yoxsa millət tarixçiliyi?", Rüfət Muradlı "Təbrizli Əli - Güneydə milli məfkurənin bayraqdarı", Azad Qaradərəli "Qədim türk tarixi va müasir ədəbiyyatımız" tezisli çıxışlar etdilər.

Dos. Gülarə Yeniseyin "Qacarlar - Hun Akinci qollarından İran taxtına uzanan uzun macəranın qəhrəmanları" mövzusunda videoçarxından sonra tarixçi Cəfər Cəfərlinin "Azərbaycan tarixşünaslığında sovet qalıqları - albançılıq və şirvançılıq" adlı məruzəsi eşidildi.

Konfransın sonunda məruzələr ətrafında dəyərləndirmə çıxışları oldu.



*Əkbər N. Nəcəf*

Turkish History".

After presentations by Associate Professor Boran Aziz and Caner Kara, a video by renowned South Azerbaijani writer Hasan Rashidi about "The Difficult Situation of Azerbaijani Turks in Iran: During the Pahlavi Regime and Now" was shown.

Yasaman Garagoyunlu then spoke on "Bifurcation in Azerbaijani Historiography: Geography or National History?", Rufat Muradli discussed "Tabrizli Ali - Standard Bearer of National Ideology in the South", and Azad Garadarali presented on "Ancient Turkish History and Our Modern Literature".

After a video by Associate Professor Gulara



*Nəsib Nəsibli*

Yenisay about "Qajars - Heroes of a Long Journey from Hun Akinci Branches to the Iranian Throne", historian Jafar Jafarli's presentation on "Soviet Remnants in Azerbaijani Historiography - Albanization and Shirvanization" was heard.

The conference concluded with evaluation speeches about the presentations.

# XƏZƏR UNİVERSİTETİNİN ƏCNƏBİ TƏLƏBƏLƏRİ ŞUŞADA

Dekabrın 2-4-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) 2024-cü il üçün "Gənclər Paytaxtı" seçilən Şuşada "İslam Dünyasının Gənclər Paytaxtı" tədbirinin bağlanış mərasimi keçirildi.

Tədbirdə Azərbaycan üzrə 20 ali təhsil müəssisəsi tələbələri ilə yanaşı İran, Türkiyə, Əfqanıstan, Mərakeş və Pakistan daxil olmaqla 52 müxtəlif ölkədən 300-dən çox nümayəndə iştirak edib.

# KHAZAR UNIVERSITY'S FOREIGN STUDENTS IN SHUSHA

On December 2-4, the closing ceremony of the "Youth Capital of the Islamic World" event took place in Shusha, which was chosen as the Islamic Cooperation Organization's (ICO) "Youth Capital" for 2024.

More than 300 representatives from 52 countries, including Iran, Türkiye, Afghanistan, Morocco, and Pakistan, attended the event alongside students from 20 Azerbaijani higher education institutions.




*Omolbanin Qaffari, Həsən Təha Rəhimi, Fərdin Kərəmi, Əli Rza Həkimi*

Tədbirdə Xəzər Universitetinin əcnəbi tələbələrindən Momina Mehdi auditoriyada çıxış edib. Həsən Təha Rəhimi, Əli Rza Həkimi və Omolbanin Qaffari isə moda bölməsində ikinci yeri tutublar. Fərdin Kərəmi, Burcu Temür, Niyama Hamdani də tədbirin iştirakçısı olublar.

Tədbir Şuşanın mədəni və tarixi bir simvol kimi rolunu vurğulayaraq, İslam dünyasının müxtəlif ölkələrindən olan gəncləri bir araya gətirdi.

One of yhe foreign students of Khazar University, Momina Mehdi made a presentation in the auditorium, while Hasan Taha Rahimi, Ali Rza Hakimi, and Omolbanin Qaffari secured second place in the fashion section. Fardin Karami, Burcu Temür, Niyama Hamdani also participated in the event. The event emphasized Shusha's role as a cultural and historical symbol, bringing together young people from different countries of the Islamic world.




## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİ DOSENTİNİN HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ "*EDEB ERKAN*" JURNALINDA

## AN ARTICLE CO-AUTHORED BY A DEPARTMENT OF LANGUAGES AND LITERATURES ASSOCIATE PROFESSOR PUBLISHED IN "*EDEB ERKAN*" JOURNAL

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin dosenti Zivər Hüseynli Baylan`ın Mardin Artuklu Universitetinin (Türkiyə) dosenti Esra Doğan Turay`la həmmüəllifi olduğu "Qizilbash crown and etiquette of wearing it in Mazlum Shirazi's Nasabname-i Shah-i Alampanah Shah Tahmasb Safavid and its translation" ("Məzlum Şirazinin "Nəsabnameyi-Şahi-Aləmpənah Şah Təhmasib Səfəvi" əsərində və tərcüməsində Qızılbaş tacı və onun geyinmə ədəbi") adlı məqalə Türkiyədə yayımlanan beynəlxalq indeksli "*Edeb Erkan*" jurnalında (2024-cü il, 6-cı sayı) dərc olunmuşdur. Məqalədə Qızılbaş tacının tarixi Səfəvilər dövrü qaynaqları və Məzlum Şirazinin "Nəsabnameyi- Şahi-Aləmpənah Şah Təhmasib Səfəvi" əsərinə istinadla tədqiq edilmişdir.

Məqalənin tam mətnin bu linkdədir:

An article titled "Qizilbash crown and etiquette of wearing it in Mazlum Shirazi's Nasabname-i Shah-i Alampanah Shah Tahmasb Safavid and its translation" co-authored by Zivar Huseynli Baylan, an Associate Professor at Khazar University's Department of Languages and Literatures, and Esra Doğan Turay, an Associate Professor at Mardin Artuklu University (Türkiye), has been published in the internationally indexed "*Edeb Erkan*" journal (2024, Issue 6) in Türkiye.

The article explores the historical background of the Qizilbash crown through Safavid era sources and with reference to Mazlum Shirazi's work "Nasabnamei-Shahi-Alampanah Shah Tahmasb Safavi".

The full text of the article:

*https://edeberkan.com/dergi/article/view/152/90*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN MƏQALƏSİ "*KRİTER*" JURNALINDA




## AN ARTICLE BY HEAD OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT IS IN "*KRITER*" JOURNAL

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin "Belirsizlik Çağında Türk Refleksi: Türk Devletleri Teşkilatı" adlı məqaləsi Türkiyənin aylıq "*Kriter*" jurnalında (dekanr 2024-cü il, nömrə 96) işıq üzü görüb.

Müəllif məqalədə İkinci Qarabağ müharibəsindən və Şuşa bəyannaməsindən sonra Azərbaycan-Türkiyə münasibətləri, Türk dövlətlərinin ortaq tarixi və mədəni əlaqələrinin onların hazırkı əməkdaşlığını necə formalaşdırması və digər məsələlərə toxunmuşdur.

Assoc.Prof. Orkhan Valiyev, the head of Khazar University's Department of Political Sciences and Philosophy, has contributed an article "The Turkic Response in the Age of Uncertainty: The Organization of Turkic States" (Belirsizlik Çağında Türk Refleksi: Türk Devletleri Teşkilatı) published in the monthly Turkish journal "*Kriter*" (December 2024, Volume 9, Issue 96).

In the article, the author touched upon the issues of Azerbaijan-Türkiye relations after the Second Nagorno-Karabakh War and the Shusha Declaration, how the common historical and cultural ties of the Turkic states shape their modern cooperation, and other related issues.

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ "*SAHAND COMMUNICATIONS IN MATHEMATICAL ANALYSIS*" JURNALINDA

## JOINT ARTICLE BY MATHEMATICS DEPARTMENT PROFESSORS PUBLISHED IN "*SAHAND COMMUNICATIONS IN MATHEMATICAL ANALYSIS*"

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Bilendər Allahverdiyevin "Eigenfunction expansions of impulsive dynamic Sturm-Liouville problems" ("İmpulsiv dinamik Şturm-Liuvill məsələsi üçün məxsusi funksiyalar üzrə ayrılış") adlı birgə məqaləsi "*Sahand Communications in Mathematical Analysis*" jurnalında (2024, Cild 21, № 4) dərc edilmişdur. Qeyd edək ki, "Sahand Communications in Mathematical Analysis" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indekslənib.

Məqalədə impulsiv dinamik Şturm-Liuvill sərhəd məsələsi tədqiq edilir. Bu məsələnin məxsusi qiymətlərinin və məxsusi funksiyalarının hesabı çoxluq təşkil etdiyi göstərilir. Baxılan məsələ üçün məxsusi funksiyalar üzrə ayrılış düsturu əldə edilir və bu düsturda olan sıranın müntəzəm yığıldığı isbat edilir.

Məqaləyə keçid:

A joint article by Khazar University's founder, Chairman of the Board of Directors and Trustees, Mathematics Department professor, and academician Hamlet Isakhanli, and Mathematics Department professor Bilander Allahverdiyev, titled "Eigenfunction expansions of impulsive dynamic Sturm-Liouville problems" has been published in the "*Sahand Communications in Mathematical Analysis*" journal (2024, Volume 21, No. 4). It is worth noting that the "Sahand Communications in Mathematical Analysis" journal is indexed in the "Web of Science" and "Scopus" databases.

This paper studies impulsive dynamic Sturm-Liouville boundary value problems. The existence of a countably infinite set of eigenvalues and eigenfunctions is proved and a uniformly convergent expansion formula in the eigenfunctions is established.

Link to the article:

***https://scma.maragheh.ac.ir/issue_49203_50310.html***
***https://scma.maragheh.ac.ir/***

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ ƏMƏKDAŞLARININ MƏQALƏSİ "*SOCIAL SCIENCES & HUMANITIES OPEN*" JURNALINDA

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT PROFESSORS' ARTICLE PUBLISHED IN "*SOCIAL SCIENCES & HUMANITIES OPEN*" JOURNAL

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşları Dr. Muhammad Imran (birinci müəllif; köməkçi professor) və Dr. Milana Abbasovanın (həmmüəllif; departament müdiri) "Digital learning transformation: A study of teachers' post-COVID-19 experiences" ("Rəqəmsal tədrisdə dəyişiklik: Müəllimlərin COVID-19-dan sonrakı təcrübələrinin tədqiqi") adlı birgə məqaləsi Scopus Q1 indeksli "*Social Sciences & Humanities Open*" jurnalında (11, 101228) dərc olunub.

Məqalədə COVID-19 pandemiyasının təhsil sektoruna təsiri araşdırılır, müəllimlərin onlayn təhsilə uyğunlaşması zamanı qarşılaşdıqları çətinliklər, dəyişən rollar və pandemiyadan sonrakı təhsil müddətində kurikulumda dəyişiklik edilməsi ehtiyacı vurğulanır.

Məqaləyə keçid:

Dr. Muhammad Imran (Adjunct Professor) and Dr. Milana Abbasova (Head of Department) of Khazar University's English Language and Literature Department, as the first and corresponding authors, have published an article titled "Digital learning transformation: A study of teachers' post-COVID-19 experiences " in *Social Sciences & Humanities Open*, 11, 101228, a Scopus Q1-Indexed journal.

This paper examines the impact of the COVID-19 pandemic on the education sector, highlighting teachers' challenges in adapting to online teaching, evolving roles, and the need for curriculum changes to address the post-pandemic educational landscape.

This paper can be read at:

***https://www.sciencedirect.com/science/article/pii/S259029112400425X***

## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏDBİR: "AÇIQ GİRİŞ VƏ ELM DİPLOMATİYASI"






*Hamlet İsaxanlı*

## EVENT WITHIN THE DIRNA PROJECT: "OPEN ACCESS AND SCIENCE DIPLOMACY"

Dekabrın 4-də Xəzər Universitetinin koordinatoru olduğu Erasmus+KA2 proqramının "Azərbaycanda İnstitusional Repozitoriyalar (Elektron Arxiv) şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı" (DIRNA) adlı layihəsi çərçivəsində universitetdə "Açıq giriş və elm diplomatiyası" adlı tədbir keçirildi.

Tədbirdə layihənin tərəfdaş universitetləri ilə bərabər, Azərbaycanın digər ali təhsil müəssisələrinin rektor, prorektor, kafedra və kitabxana müdirləri iştirak etdilər.

Tədbirin açılışı Xəzər Univesiteti Kamera orkestrinin ifası ilə başladı.

Rəsmi hissə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlının nitqi ilə açıldı. Hamlet İsaxanlı qonaqları salamladı, layihənin əhəmiyyəti və faydaları haqqında məlumat verdi. Sonra açılış nitqi üçün söz İzmir Yüksək Texnologiya İnstitutunun (İYTE; Türkiyə) rektoru Prof.Dr. Yusuf Baran`a verildi.

Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva Xəzər Universiteti haqqında təqdimatla çıxış etdi.

Tədbirdə Xəzər Universiteti Kitabxana İn-

On December 4, an event titled "Open Access and Science Diplomacy" was held at Khazar University within the framework of the Erasmus+KA2 program project "Development of Research Potential through the Network of Institutional Repositories (Electronic Archive) in Azerbaijan" (DIRNA), where Khazar University serves as the coordinator.

The event was attended by rectors, pro-rectors, department and library directors from partner universities and other higher education institutions in Azerbaijan.

The event opened with a performance by the Khazar University Chamber Orchestra.

The official portion began with a speech by Prof. Academician Hamlet Isakhanli, founder and Chairman of the Board of Directors of Khazar University. Hamlet Isakhanli welcomed the guests and provided information about the project's significance and benefits. The opening speech was then given to Prof. Dr. Yusuf Baran, Rector of Izmir Institute of High Technology (IIHT, Türkiye).

Fatimah Valiyeva, Head of the International Relations Department, delivered a presentation about Khazar University.

formasiya Mərkəzinin direktor müavini Aytac Misgərli DIRNA layihəsi, onun mahiyyəti, məqsədi, fəaliyyəti və başlandığı dövrdən bu günə qədər görülən işlər, layihənin tərəfdaş olmayan universitetlər üçün də faydaları haqqında ətraflı məlumat verdi.



*Yusuf Baran, İradə Xəlilova*

Tədbir Yusuf Baran`ın "Açıq giriş və elm diplomatiyası" adlı mövzusu ilə davam etdi. Rektor elm siyasəti, mahiyyəti, yalnız yerli deyil, bəşəri problemlərin həllində onun rolundan, ləyaqət, şəffaflıq, açıqlıq prinsiplərinin əsas tutulması lüzumundan geniş danışdı.

İYTE kitabxana direktoru Gültekin Gürdal "Araşdırmanızın sərhədlərini aşın: açıq giriş ilə fərq yaradın" mövzusundakı çıxışında müasir dövrdə elmi araşdırmaların müəyyən bir çərçivə daxilində deyil, cəmiyyətə əlçatanlığının mümkünlüyü, süni intellektin artıq elm aləminə daxil olması və gələcəkdə onun elmi araşdırmalardakı rolundan bəhs etdi.

Tədbirdə Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova və Yusuf Baran anlaşma memorandumu imzaladılar.



*Gültekin Gürdal*

Aytaj Misgarly, Deputy Director of the Khazar University Library Information Center, provided detailed information about the DIRNA project, its essence, purpose, activities, and the work done from its inception to the present, as well as its benefits for non-partner universities.

The event continued with Yusuf Baran's presentation on "Open Access and Science Diplomacy". The rector extensively discussed science policy, its essence, and its role in solving not just local but humanitarian problems, emphasizing the importance of principles of dignity, transparency, and openness.

IIHT library director Gultekin Gurdal, in her presentation "Transcend the Boundaries of Your Research: Make a Difference with Open Access", discussed the possibility of scientific research being accessible to society beyond specific frameworks, the emergence of artificial intelligence in the scientific world, and its potential future role in scientific research.

During the event, Khazar University Rector Associate Professor Irada Khalilova and Yusuf Baran signed a memorandum of understanding.

# TƏLƏBƏLƏR ÜÇÜN BEYNƏLXALQ SEMİNAR: "TÜRKDİLLİ DÖVLƏTLƏR SAMMİTİ"NDƏN TÜRK DÖVLƏTLƏRİNİN BİRLİYİNƏ

# INTERNATIONAL SEMINAR FOR STUDENTS: "FROM THE SUMMIT OF TURKIC STATES TO THE UNITY OF TURKIC STATES"

Dekabrın 4-də Xəzər Universitetinin Nərimanov kampusunda Türk dünyasının birliyinə gətirib çıxaran inkişaf yoluna aid beynəlxalq elmi seminar keçirildi. Tədbir Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun təşəbbüsü ilə təşkil olunmuşdu.

Seminarın açılışını institutun koordinatoru, Dos. Aynur Qəzənfərqızı etdi. O, Türk Dövlətləri Təşkilatının (TDT) keçdiyi tarixi yoldan bəhs etdi. Təşkilatın 2009-cu ildə Naxçıvanda keçirilmiş ilk toplantısının "Türkdilli Dövlətlər Sammiti" adlandırılmasının tarixi və siyasi mühitin təsiri ilə olduğunu vurğuladı və müasir günümüzdə TDT-nin yaranmasının ciddi siyasi təsir və təzyiq ilə əmələ gəldiyini bildirdi. Sonra A. Qəzənfərqızı tədbirin məruzəçilərini tələbələrə təqdim edərək, sözü onlara verdi.

İlk məruzəçi Qazaxıstanın Əl-Fərabi Universitetinin tanınmış alimi, folklorşünas professor Anarbay Buldubayev oldu. O, "Qazax-Azərbaycan folklorunda ortaq süjetlər" mövzusunda qazax dilində çıxış edərək, iki xalqın folklorunda rast gəlinən mədəni bağları və ortaq motivləri geniş izah etdi.

Pamukkale Universitetinin (Türkiyə) Sosial insan və toplum elmləri fakültəsi Türkologiya bölümünün rəhbəri professor Turgut Tok "Türkcənin coğrafiyası" adlı məruzəsi ilə Türk dilinin geniş yayılma arealını və tarixi inkişafını ətraflı nəzərə çatdırdı. Məruzədə Türk dünyasının dil baxımından keçmişi, bu günü və gələcəyi ilə bağlı əhəmiyyətli məsələlər vurğulandı.

Seminarda albaniyalı tədqiqatçı, "Albaniya-Azərbaycan Dostluq Dərnəyi"nin sədri Entela Muço "Azərbaycan-Albaniya əlaqələrinin tarixi" mövzusunda məruzə edərək, hər iki xalq arasındakı tarixi və mədəni əlaqələrdən danışdı. Bu mövzu tələbələr üçün xüsusilə maraqlı idi, çünki onlar Azərbaycanla uzaq ərazilərdə yaşayan xalqlar arasındakı bağlarla yaxından tanış olmaq imkanı qazandılar.

Son məruzəçi Azərbaycanda Atatürk Mərkəzinin şöbə müdiri, aşıq sənətinə dair yeni yanaşmaları ilə tanınan dosent Nazir Əhmədli idi. O, "Azərbaycan türkcəsi haqqında" məruzəsində Azərbaycan türkcəsinin zəngin lüğət fondu və tarixi inkişafı haqqında ətraflı danışaraq, mövzunun əhəmiyyətini vurğuladı.

Seminarın sonunda tələbələrin sualları cavablandırıldı, fəal müzakirələr aparıldı.

**Aydan Nəsirli**
*Xəzər Universiteti, Filologiya (İngilis dili və ədəbiyyatı) ixtisası, II kurs*

On December 4, an international scientific seminar on the development path leading to the unity of the Turkic world was held at the Khazar University Narimanov campus. The event was organized on the initiative of the Khazar University Institute of Cultural Anthropology and Folklore.

The seminar was opened by the institute's coordinator, Associate Professor Aynur Gazanfargizi. She spoke about the historical path of the Turkic States Organization (TSO). She emphasized that the first meeting of the organization held in Nakhchivan in 2009, named the "Summit of Turkic States," was influenced by the historical and political environment, and noted that the creation of the TSO in modern times emerged with significant political influence and pressure. She then introduced the speakers to the students and gave them the floor.

The first speaker was Professor Anarbay Buldubayev, a well-known scholar from Kazakhstan's Al-Farabi University. Speaking in Kazakh, he presented on "Common Plots in Kazakh-Azerbaijani Folklore," extensively explaining the cultural connections and shared motifs found in the folklore of the two peoples.

Professor Turgut Tok, head of the Turkology Department at Pamukkale University's (Türkiye) Faculty of Social Human and Community Sciences, delivered a presentation on "The Geography of Turkish Language," thoroughly highlighting the wide distribution area and historical development of the Turkish language. The presentation emphasized significant issues related to the past, present, and future of the Turkic world from a linguistic perspective.

Albanian researcher and president of the "Albania-Azerbaijan Friendship Association" Entela Muço presented on "The History of Azerbaijan-Albania Relations," discussing the historical and cultural connections between the two peoples. This topic was particularly interesting for students, as they gained the opportunity to become closely acquainted with the connections between Azerbaijan and peoples living in distant territories.

The final speaker was Associate Professor Nazir Ahmadli, head of a department at the Ataturk Center in Azerbaijan, known for his new approaches to the art of ashug. In his presentation "About Azerbaijani Turkish," he spoke in detail about the rich vocabulary and historical development of Azerbaijani Turkish, emphasizing the importance of the topic.

The seminar concluded with students' questions being answered and active discussions taking place.

**Aydan Nasirli**
*Khazar University, Philology (English Language and Literature), 2nd year*

# DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ELM VƏ ALİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİNDƏ GÖRÜŞ



*Ülkər Səttarova*



*Raziyə İsayeva, İradə Xəlilova, Yusuf Baran, Gültekin Gürdal*

# MEETING AT THE STATE AGENCY FOR SCIENCE AND HIGHER EDUCATION WITHIN THE DIRNA PROJECT

Dekabrın 5-də Xəzər Universitetinin koordinatorluq etdiyi Erasmus+ DIRNA layihəsi çərçivəsində Elm və Ali Təhsil üzrə Dövlət Agentliyində agentliyin rəhbər heyəti ilə Xəzər Universiteti və İzmir Yüksək Texnologiya İnstitutu (İYTE; Türkiyə) nümayəndələrinin görüşü keçirilib.

Görüşdə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova və əməkdaşları, İzmir Yüksək Texnologiya İnstitutunun rektoru Prof.Dr. Yusuf Baran, İYTE kitabxana direktoru Gültekin Gürdal, Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova və İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva iştirak etmişlər.

Görüşün əsas mövzusu "Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının İnkişafı" (DIRNA) layihəsi çərçivəsində tərəfdaşlıq imkanları idi. Layihənin əhəmiyyəti və onun yerli universitetlərə elmi potensialın inkişafı baxımından faydaları ətraflı təhlil edildi, beynəlxalq əməkdaşlıq və elmi tədqiqat sahəsində mövcud vəziyyət və gələcək perspektivlər müzakirə olundu.

Bəzi media qurumları bu barədə xəbər yayımlayıb.

On December 5, a meeting was held at the State Agency for Science and Higher Education with the agency's leadership and representatives from Khazar University and Izmir Institute of Technology (IIT; Türkiye), coordinated within the Erasmus+ DIRNA project.

The meeting was attended by State Agency for Science and Higher Education Director Ulker Sattarova and staff, Izmir Institute of Technology Rector Prof. Dr. Yusuf Baran, IIT Library Director Gültekin Gürdal, Khazar University Rector Assoc. Prof. Irada Khalilova, and School of Economics and Management Dean Dr. Raziya Isayeva.

The main focus of the meeting was partnership opportunities within the "Research Potential Development through the Institutional Repositories Network in Azerbaijan" (DIRNA) project. The project's significance and its benefits for local universities in terms of scientific potential development were comprehensively analyzed. The current situation and future perspectives in international collaboration and scientific research were discussed.

Some media organizations have published news about this event.

*https://eatda.edu.az/xeberler/elm-ve-ali-tehsil-uzre-dovlet-agentliyi-ile-turkiye-respublikasinin-izmir-yuksek-texnologiya-institutu-ve-xezer-universitetinin-numayendeleri-arasinda-gorus-kecirilib?fbclid=IwY2xjawHFDB9leHRuA2FlbQIxMAABHYWElhw96NubPV9C1sZ80avzS0KxJG99RwGdSp5VIjhTjTKOpC5J7JAEKw_aem_DubgMv6mxTE7iyWQtIqstg*

## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




# ELNARƏ AKİMOVANIN YENİ KİTABI ÇAP OLUNUB

Tənqidçi-ədəbiyyatşünas, filologiya elmlər doktoru, Milli Məclisin deputatı Elnarə Akimovanın "Azərbaycan uşaq ədəbiyyatı: tarixi təcrübəsi və müasir istiqamətləri" adlı yeni kitabı çap olunub. "Elm və təhsil" nəşriyyatında işıq üzü görən kitabın elmi redaktoru və ön sözün müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, rəyçiləri filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan və filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlıdır.

Kitabda çağdaş humanitar fikrinin kontekstində Azərbaycan uşaq ədəbiyyatının tarixi təcrübəsi – təşəkkülü, yaranması və inkişafı ümumiləşdirilir. "Uşaq ədəbiyyatı: tarixdən çağdaşlığa", "Klassika modern işığında", "Uşaq mətnləri diskurs kimi", "Uşaq ədəbiyyatında müharibə və zəfər duyğuları", "Dərsliklərin vəziyyəti: problemlər, qayğılar", "Müsahibələr: analitik müstəvidə", "Müzakirə saatı: söhbətlər, düşüncələr", "Uşaq ədəbiyyatında imzalar" adlı bölmələrdə sistemləşdirilən mətnlərdə uşaq ədəbiyyatının müasir istiqamətləri ilə bağlı dəyərləndirmə aparılır, müxtəlif uşaq ədəbiyyatı nümunələrinin poetikası, üslub və növ zənginliyi nəzəri analizə cəlb olunur, habelə Zəfər tariximizdən sonra uşaq ədəbiyyatının vardığı yeni hüdudlar tədqiqat predmetinə çevrilir.

Kitab humanitar fikir adamlarına, elm, ədəbiyyat və geniş oxucu auditoriyalarına ünvanlanıb.




*İsa Həbibbəyli, Bədirxan Əhmədli, Nəcibə Arif, Mehman Həsənli, Nigar İsayeva*

# "ASİYA XALQLARI ƏDƏBİYYATI: ƏNƏNƏLƏR VƏ MÜASİR TENDENSİYALAR" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS

Azərbaycan Milli Elmlər Akademiyasında "Asiya xalqları ədəbiyyatı: ənənələr və müasir tendensiyalar" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Tədbirdə giriş nitqi ilə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli konfransın uzun zaman diqqətdən kənarda qalmış Asiya ölkələri ədəbiyyatı ilə bağlı Bakıda keçirilən ilk beynəlxalq elmi konfrans kimi tarixi əhəmiyyət daşıdığını bildirib. Keçmiş sovetlər birliyi dönəmində Qərb ölkələrinin ədəbiyyatı, mədəniyyəti və siyasətinin daha çox öyrənildiyini deyən akademik İsa Həbibbəyli bildirib ki, həmin dövrdə ictimai fikirdə bir Asiya boşluğu yaranmışdı. O, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizdə Asiya ölkələri ilə bağlı silsilə tədqiqatların aparıldığını diqqətə çatdırıb. Akademik İsa Həbibbəyli bu məqsədlə AMEA-da Asiya ədəbiyyatını öyrənən ayrıca şöbənin yaradıldığını, Ədəbiyyat İnstitutunda Çin Mərkəzi, Pakistan Ədəbiyyatı Mərkəzi, Mehmet Akif Ərsoy Mərkəzi, Əlişir Nəvai adına Ədəbiyyatşünaslıq Mərkəzi, eləcə də Məhtimqulu Fəraqi Türkmən Ədəbiyyatı Mərkəzinin fəaliyyətə başladığını söyləyib. Qeyd edib ki, bütün bunlar Asiya ölkələrini əhatə etsə də, Akademiyada Qərb ədəbiyyatının tədqiqi də davam etdirilir, həmçinin alimlər Afrika ədəbiyyatını öyrənməkdə də maraqlıdırlar.

Çıxışının sonunda AMEA prezidenti Azərbaycan ədəbiyyatını, mədəniyyətini, ölkəmizi Asiya xalqlarına daha dərindən tanıtmaq, sözügedən sahələrin tədqiqatçıları ilə yaxından tanış olmaq və gələcəkdə ortaq layihələr formalaşdırmaq baxımından konfransın önəmini qeyd edib.

Sonra Asiya Elmlər Akademiyası və Cəmiyyətləri Assosiasiyasının prezidenti professor Əhməd Nuri Yurdusev, Pakistan Ədəbiyyat Akademiyasının prezidenti professor Nəcibə Arif, Çin Sosial Elmlər Akademiyasının Ədəbiyyat Tədqiqatları İnstitutunun direktor əvəzi professor Lu Yusong, Vyetnam Hanoy Universitetinin əməkdaşı Nguyen Van Çien, Özbəkistanın Fərqanə Dövlət Universitetinin Ədəbiyyatşünaslıq kafedrasının müdiri professor Mənzurə Jurayeva, Qazaxıstanın Abay adına Qazax Milli Pedaqoji Universitetinin əməkdaşı Janakul Sametova, Hindistanın Camiə Milliyə İslam Mərkəzi Universitetinin Xarici Dillər Departamentinin əməkdaşı dosent Nouşad, Yaponiyanın ölkəmizdəki səfirliyinin attaşesi İvasaki Takamasa və Monqolustanın Azərbaycandakı fəxri konsulu Könül Əlizadə çıxış edərək, konfransın Asiya ölkələri arasında elmi əlaqələrin genişlənəcəyinə töhfə verəcəyini bildiriblər. Tədbirdə Cənubi Koreyanın Seul Milli Universitetinin Koreya dili və ədəbiyyatı kafedrasının professoru Bang Min-Ho "Şərqi Asiya diskursu və Koreya ədəbiyyatının yeni gələcəyi", Çin Sosial Elmlər Akademiyasının Ədəbiyyat Tədqiqatları İnstitutunun direktor əvəzi professor Lu Yusong "Çin ədəbiyyatının xalq mərkəzli təbiəti; təkamül və missiya", AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri professor Bədirxan Əhmədli "Asiya ədəbiyyatında doğu-batı diskursu: Koreya, yapon və əfqan romanları kontekstində" mövzusunda məruzələrlə çıxış ediblər.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*

## DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ KONFRANSDA

## HEAD OF DEPARTMENT AT INTERNATIONAL CONFERENCE

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev Qərbi Azərbaycan İcması tərəfindən "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" II beynəlxalq konfransına dəvət olunmuş və iştirak etmişdir.

Dekabrın 5-6-da Bakıda keçirilən konfransda aralarında parlament üzvləri, ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyəti fəalları və elm xadimləri olmaqla 200-dən artıq iştirakçı ilə 51 ölkə təmsil olunmuşdur.

Konfransın açılışında Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciəti oxunub.

Konfransda Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu və digərləri çıxış etmişlər.

Assoc. Prof. Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy, was invited to the Second International Conference organized by the Western Azerbaijan Community, titled "The Right of Return: Advancing Justice for Azerbaijanis Expelled from Armenia." More than 200 participants from 51 countries, including parliament members, public-political figures, civil society activists, and scientists, attended the conference held in Baku on December 5-6.

President Ilham Aliyev's address to the conference participants was read during the opening ceremony.

At the conference, Aziz Alakbarli, Chairman of the Board of the West Azerbaijan Community and Member of the Milli Majlis, Mevlut Cavusoglu, former Foreign Minister of Türkiye and Head of the Turkish Grand National Assembly's NATO PA delegation, and others delivered speeches.

The conference's final document was adopted at the end of the event.



## TƏLƏBƏLƏRİN KLİNİK TƏCRÜBƏSİ

## CLINICAL EXPERIENCE OF STUDENTS

Xəzər Universitetinin Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan V kurs tələbələri 2024-cü ilin oktyabr-noyabr aylarında Bakı Şəhər Zooloji Parkında kliniki təcrübə keçmişlər. Təcrübənin əsas məqsədi zooloji parkda saxlanılan ayrı-ayrı heyvan növlərinin saxlanma və bəslənmə qaydalarının, heyvanlarda klinik müayinə prosesinin, müalicə protokollarının, vəhşi və dekorativ heyvanlara yanaşma qaydalarının tələbələrə öyrədilməsi olmuşdur.

Fifth-year Veterinary Medicine students from Khazar University underwent clinical training at the Baku City Zoo during October-November 2024. The main purpose of the training was to teach students about the maintenance and feeding rules of different animal species kept in the zoo, the clinical examination process of animals, treatment protocols, and the proper handling approaches for wild and decorative animals.

*https://www.instagram.com/p/DDMwvl2txi6/?igsh=MTVpeG1xcXpubXM4Mw==*
*https://www.instagram.com/p/DB0mePrORQC/?igsh=czhlNnNuZnRic3hu*

## DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ *FÜYUZAT.AZ*- DA

## AN ARTICLE BY HEAD OF DEPARTMENT IS IN *FUYUZAT.AZ*

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin "TRT World Forum 2024" adlı məqaləsi *Füyuzat.* az-da dərc edilmişdir.

Dos. Vəliyev məqalədə “TRT World Forum”un əhəmiyyəti, “TRT World”un “Mərkəzi Asiya” panelinə müzakirəçi kimi dəvət olunması, Türkiyə Azərbaycan münasibətlərinin inkişaf səviyyəsi və digər məsələlər haqqında yazmışdır.

Məqaləyə keçid:

An article by Assoc. Prof. Orkhan Valiyev, Head of Political Science and Philosophy Department at Khazar University, titled “TRT World Forum 2024”, has been published in *Fuyuzat.az*.

In the article, Assos. Prof. O. Valiyev touched on the importance of “TRT World Forum”, the invitation of “TRT World” as discussant to the “Central Asia” panel, level of development Tükiye Azerbaijan relations and other related issues.

Link to the article:

*https://fuyuzat.az/trt-world-forum-2024/*

## PSİXOLOGİYA DEPARTAMENTİ ƏMƏKDAŞLARININ MƏQALƏSİ “ELMİ ƏSƏRLƏR” JURNALINDA

## PSYCHOLOGY DEPARTMENT STAFF'S ARTICLE PUBLISHED IN "SCIENTIFIC WORKS" JOURNAL




Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova və əməkdaşı Mirsadiq Muxtarovun “Təbii ətraf mühit amillərinin psixi rifahla qarşılıqlı əlaqəsi” adlı birgə məqaləsi Ali Attestasiya Komissiyasının siyahısına daxil olan Azərbaycan Respublikası Təhsil İnstitutunun “Elmi əsərlər” jurnalında dərc edilmişdir (2024, Cild 91, № 6).

Məqalədə təbii ətraf mühit amillərinin psixi rifaha təsiri mövzusu geniş şəkildə araşdırılmışdır. Müəlliflər beynəlxalq tədqiqatlara əsaslanaraq, bu sahədəki araşdırmaları sistemli şəkildə təhlil etmişlər. Məqalədə insanların təbiətlə təmasda olmasının onların psixoloji vəziyyətinə müsbət təsirləri vurğulanmış, bu kontekstdə naturopatik terapiyanın əhəmiyyəti xüsusilə diqqətə alınmışdır. Həmçinin, ekoloji şüurun formalaşdırılması ilə bağlı konkret təkliflər də məqalədə yer almışdır.

An article titled "The Interrelation of Natural Environmental Factors with Mental Well-being" by Malak Karimova, coordinator of Khazar University's Psychology Department, and staff member Mirsadiq Mukhtarov, has been published in the "Scientific Works" journal of the Education Institute of the Republic of Azerbaijan, which is included in the Higher Attestation Commission's list (2024, Volume 91, No. 6).

The article extensively examines the impact of natural environmental factors on mental well-being. Based on international research, the authors systematically analyzed studies in this field. The article emphasized the positive effects of human contact with nature on their psychological state, with particular attention given to the importance of naturopathic therapy. Additionally, the article included specific proposals regarding the formation of ecological consciousness.

*DOI: 10.69682/arti.2024.91(6).15-20*

# "TÜRK DÜNYASINDA AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI ARAŞDIRMALARI" MÖVZUSUNDA I BEYNƏLXALQ ELMİ SİMPOZİUM





*Dilbər Zeynalova*

# I INTERNATIONAL SCIENTIFIC SYMPOSIUM ON "AZERBAIJANI LANGUAGE AND LITERATURE STUDIES IN THE TURKIC WORLD"

Dekabrın 5-6-da Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Diasporuna Dəstək Fondu, Nar, Müstəqil Sənayeçi və İş Adamları Dərnəyi, AMEA, Türkiyənin Ege, Atatürk, Qars Qafqaz universitetləri və Özbəkistanın İqtisadiyyat və Pedaqogika Universitetinin dəstəyi və tərəfdaşlığı



*Mərziyyə Nəcəfova (AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu)*

ilə "Türk dünyasında Azərbaycan dili və ədəbiyyatı araşdırmaları" mövzusunda I Beynəlxalq Elmi Simpozium keçirilib.

Simpozium Azərbaycan dilinin və ədəbiyyatının ölkəmizdən kənarda, xüsusilə də Türk dünyasında mövcud vəziyyətini, onun tədqiqi və təbliği istiqamətində həyata keçirilən işləri geniş platformada müzakirə etmək, bu sahədəki problemləri və perspektivləri müəyyənləşdirmək məqsədilə keçirilib.

Xəzər Universitetinin Mərmər salonunda keçirilən açılış mərasimində Xəzər Universitetinin Dillər və

On December 5-6, the I International Scientific Symposium on "Azerbaijani Language and Literature Studies in the Turkic World" was held, organized by the Department of Languages and Literatures of Khazar University, with the support and partnership of the State Committee on Work with Diaspora, Azerbaijan Diaspora Support Foundation, Nar, Independent Industrialists and Businessmen As-



*Onur Kurukaya (Qafqas Universiteti, Türkiyə)*

sociation, ANAS, Türkiye's Ege, Atatürk, Kars Caucasus Universities, and Uzbekistan's University of Economics and Pedagogy.

The symposium aimed to comprehensively discuss the current situation of the Azerbaijani language and literature outside the country, particularly in the Tur-

ədəbiyyatlar departamentinin müdiri, Dos. Dilbər Zeynalova simpoziumun Türk dünyası arasında bir körpü yaradacağına, Azərbaycan dilinin və ədəbiyyatının beynəlxalq aləmdə təbliğinə mühüm töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı simpoziumun mövzusunun əhəmiyyətini və hansı dəyərləri daşıdığını əsaslandırmış, "Divanü-lüğət-it-türk" və "Kitabi-Dədə Qorqud" kimi kultlardan



*Yavuz Akpınar*

müasir dövrə qədər tarixi, milli, siyasi, elmi əhəmiyyəti olan bir çox mənbə və şəxslərə istinad edərək, Azərbaycan və Türk dünyası üçün ortaq hesab olunan dəyərlərdən danışıb, simpoziumun da məhz eyni xətti izlədiyini və onun geniş aspektli inkişaf üçün vacib-



*Zivər Hüseynli-Baylan (Xəzər Universiteti)*

liyini vurğulayıb.

Ege Universitetinin professoru, Türkiyə Yazarlar Birliyinin, Avrasiya Yazarlar Birliyinin, Türk Mədəniyyəti Araşdırma İnstitutunun, Azərbaycan Yazıçılar Birliyinin üzvü Prof. Yavuz Akpınar, Diaspora İş üzrə Dövlət Komitəsinin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Cavid İsmayılov, Nar İctimaiyyətlə Əlaqələr



*Hökümə Kərimova*

kic world, the work carried out in its research and promotion, and to identify problems and perspectives in this field.

During the opening ceremony in Khazar University's Marble Hall, Department of Languages and Literature Head, Assoc. Prof. Dilbar Zeynalova expressed hope that the symposium would create a bridge between the Turkic world and make a significant con-



*Cavid İsmayılov*

tribution to promoting the Azerbaijani language and literature internationally.

At the event, Khazar University's Founder and Chairman of the Board of Directors, Prof. Acad. Hamlet Isakhanli substantiated the symposium's topic and the values it carries. Referencing sources and personalities of historical, national, political, and scientific importance from "Diwan Lughat al-Turk" and "Book of Dede Qorqud" to the modern era, he spoke about values common to Azerbaijan



*Mənsurə Əhmədova (Xəzər Universiteti)*

və Korporativ Ünsiyyət departamentinin direktoru, Xəzər Universitetinin məzunu Hökümə Kərimova çıxış edərək, simpoziumun Türk dünyasının elmi və mədəni inkişafındakı əhəmiyyətindən danışıblar.

Türk dünyasında azərbaycanlıların dil və ədəbiyyat məsələlərinə diqqət çəkmək, linqvistik-filoloji tədqiqatları, eyni zamanda, ədəbi şəxsiyyətlərin yaradıcılığının tədqiq prosesini aktuallaşdırmaq, Türk dünyası ziyalıları, tədqiqatçıları arasında kommuni-



*İlkin Əsgərov (Xəzər Universiteti)*

kasiyanı gücləndirmək məqsədilə Azərbaycan Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Şimali Kipr Türk Respublikası kimi türk dövlətlərini elm və mədəni inkişaf naminə bir araya toplayan simpozium panellər üzrə elmi çıxışlarla davam edib.

İki gün ərzində simpoziumda 100-ə yaxın elmi tədqiqatçı müxtəlif mövzulu tezislərlə əyani və onlayn formada iştirak ediblər.

Dekabrın 6-da simpozium çərçivəsində Xəzər Universitetinin "Dünya" məktəbində Qars Qafqaz Universitetinin əməkdaşları dosent İlkin Qulusoy və Sema Şahin Dedenin "Türkiye türkçesi ve Azerbaycan türkçesi karşılaştırmalı deyim bilgisi" kitabının təqdimatı olub.

Simpozium öz işini Azərbaycanın böyük sənətkarı, turançılıq məfkurəsinin təbliğatçısı Cəfər Cabbarlının anadan olmasının 125 illiyinə həsr olunmuş elmi, musiqili bədii proqramla yekunlaşdırıb.

and the Turkic world, emphasizing the symposium's alignment with this line and its importance for comprehensive development.

Speakers including Ege University Professor Prof. Yavuz Akpınar, State Committee on Work with Diaspora's Department Head Dr. Cavid Ismayil, and Nar Public Relations and Corporate Communication Department Director and Khazar University alumnus Hokuma Karimova discussed the symposium's significance in the scientific and cultural development of the Turkic world.

The symposium, aiming to draw attention to language and literature issues of Azerbaijanis in the Turkic world, actualize linguistic-philological



*Furkan Abir (Marmara Universiteti, Türkiyə)*

research, investigate literary personalities' works, and strengthen communication among Turkic world intellectuals and researchers, continued with scientific presentations across panels, bringing together Turkish, Uzbek, Kyrgyz, Kazakh, and Northern Cyprus Turkish Republic scholars and researchers for scientific and cultural development.

Over two days, nearly 100 scientific researchers participated both in-person and online with diverse theses.

On December 6, within the symposium framework, Kars Caucasus University associate professors İlkin Gulusoy and Sema Şahin Dede presented their book "Comparative Idiom Knowledge of Türkiye Turkish and Azerbaijan Turkish" at Khazar University's "Dünya" School.

The symposium concluded with a scientific, musical, and artistic program dedicated to the 125th anniversary of Azerbaijani great artist and Turanism propagandist Jafar Jabbarly.

# DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ TƏDBİRDƏ

# HEAD OF DEPARTMENT AT INTERNATIONAL EVENT




Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev dekabrın 7-də ADA Universitetində "İctimai diplomatiyada parlamentlərin rolu: Azərbaycan və Türkiyə nümunəsi" mövzusuna həsr olunmuş beynəlxalq tədbirdə iştirak etmişdir.

Tədbir Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Əli Əhmədov və Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici Əlaqələr Komitəsinin sədri Fuat Oktay`ın çıxışları ilə başlamışdır. Natiqlər Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinə toxunaraq, strateji tərəfdaşlığın dərinləşdirilməsinin vacibliyini vurğulayıblar.

Sonra tədbir Milli Məclisin deputatı, Elm və təhsil komitəsinin sədr müavini, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə davam edib.

Dəyirmi masada Azərbaycan və Türkiyə parlamentlərinin ictimai diplomatiya sahəsində təcrübəsi ətraflı müzakirə edilib, həmçinin əməkdaşlığın təşviqinə töhfə verən təşəbbüslər barədə fikir mübadiləsi aparılıb.

Head of the Department of Political Sciences and Philosophy, Associate Professor Orxan Valiyev participated in an international event at ADA University on December 7, dedicated to the topic "The Role of Parliaments in Public Diplomacy: The Case of Azerbaijan and Türkiye".

The event began with speeches by Azerbaijan's Parliament Speaker's First Deputy Ali Ahmadov and Grand National Assembly of Türkiye (GNAT) Foreign Relations Committee Chair Fuat Oktay. The speakers touched upon Azerbaijan-Türkiye friendship and brotherhood relations, emphasizing the importance of deepening strategic partnership.

The event then continued with moderation by National Assembly Deputy, Deputy Chair of the Science and Education Committee, and ADA University vice rector Fariz Ismayilzade.

During the roundtable, the experiences of Azerbaijani and Turkish parliaments in public diplomacy were discussed in detail, and an exchange of ideas was held regarding initiatives that contribute to promoting cooperation.



*Ramiz Yunus*



## GEOSİYASI PROSESLƏRİN REGİONA TƏSİRLƏRİNƏ DAİR SEMİNAR

Dekabrın 9-da Xəzər Universitetində Humanitar, təhsil və sosial elmlər fakültəsinin təşkilatçılığı və dekan müavini Pərvin Kərimovanın moderatorluğu ilə siyasi ekspert Ramiz Yunusun "Dünyada gedən geosiyasi proseslər, onların təsirləri və Cənubi Qafqaz regionu üçün mümkün riskləri" mövzusunda seminarı keçirilmişdir. Seminarda Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Yaqub Məmmədov, Dr. Söhrab Mustafayev, Ceyran Məmmədova, Tarix müəllimliyi və Tarix və coğrafiya müəllimliyi ixtisaslarında təhsil alan tələbələr, eləcə də, ictimaiyyət və mədəniyyət nümayəndələri, o cümlədən əməkdar incəsənət xadimi Cavanşir Quliyev iştirak etmişdir.

Məruzəçi Rusiya - Ukrayna müharibəsi, İsrail - Fələstin toqquşmaları və eləcə də Suriya hadisələri və onun regiona təsirləri haqqında, eləcə də, Vətən müharibəsindən sonra regionda yaranmış reallıqlar, Zəngəzur dəhlizi, Azərbaycan -Ermənistan sülh müqaviləsi və digər məsələlər kontekstində mülahizələrini bölüşmüşdür. Sonda qonaqları, müəllimləri və tələbələri düşündürən məsələlər ətrafında geniş müzakirə aparılmışdır.

## SEMINAR ON THE IMPACT OF GEOPOLITICAL PROCESSES ON THE REGION

On December 9, a seminar by political expert Ramiz Yunus on "Global Geopolitical Processes, Their Impacts, and Potential Risks for the South Caucasus Region" was held at Khazar University. The seminar was organized by the School of Humanities, Education, and Social Sciences and moderated by the Dean's Assistant, Parvin Karimova. The seminar was attended by Khazar University's Director of Public Relations and Media, Alovsat Amirbayli, Department of History and Archaeology instructors Dr. Yagub Mammadov, Dr. Sohrab Mustafayev, Jeyran Mammadova, students studying History Teaching and History and Geography Teaching specialties, as well as public and cultural figures, including Honored Artist Javanshir Guliyev.

The speaker shared insights on the Russia-Ukraine war, Israel-Palestine conflicts, Syrian events and their regional impacts, as well as the realities in the region after the Patriotic War, the Zangezur corridor, the Azerbaijan-Armenia peace agreement, and other related issues. The event concluded with extensive discussions addressing questions and concerns raised by guests, instructors, and students.

# SƏTTAR BƏHLULZADƏ ADINA XARİCİ DİLLƏR TƏMAYÜLLÜ GİMNAZİYANIN ŞAGİRDLƏRİ İLƏ GÖRÜŞ





*Mələk Kərimova*

# MEETING WITH STUDENTS FROM FOREIGN LANGUAGES SPECIALIZED GYMNASIUM NAMED AFTER SATTAR BAHLULZADE

Dekabrın 10-da Xəzər Universitetinin Mərmər salonunda Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın şagirdləri ilə görüş keçirilmişdir. Universitetin Psixologiya Mərkəzinin direktoru Mələk Kərimova vaxtın idarə edilməsi, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı çıxış etmişdir.

Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy Xəzər Universiteti haqqında məlumat vermiş və abituriyentlərin suallarını cavablandırmışdır. Gimnaziyanın Azərbacan dili və ədəbiyyatı müəllimi Elyas Cəfərov Xəzər Universiteti haqda öz təəssüratlarını bölüşmüş və universitet rəhbərliyinə təşəkkür etmişdir.

Sonda Xarici Dillər Təmayüllü Gimnaziyanın şagirdləri Xəzər Universitetinin maddi-texniki bazası ilə yaxından tanış olmuşlar.

On December 10, a meeting was held in the Marble Hall of Khazar University with students from the Foreign Languages Specialized Gymnasium named after Sattar Bahlulzade. Melek Karimova, Director of the University's Psychology Center, delivered a presentation on time management, overcoming exam anxiety, and effective working methods. Ulvi Babasoy, an instructor from the Department of Languages and Literatures, provided information about Khazar University and answered questions from prospective students. Elyas Jafarov, the Azerbaijani Language and Literature teacher from the gymnasium, shared his impressions about Khazar University and expressed gratitude to the university leadership.

At the end of the meeting, the students from the Foreign Languages Specialized Gymnasium closely familiarized themselves with Khazar University's material and technical resources.



*Elyas Cəfərov, Ülvi Babasoy*



# ZƏRDÜŞTLÜYÜN FƏLSƏFƏSİ

**Leyla Mustafayeva**

*Bakı Slavyan Universiteti, baş müəllim*

**Açar sözlər**: Zərdüştlük, Avesta, maqlar, atəşpərəstlik, Hörmüz, Əhrimən.
**Key words:** Zoroastrianism, Avesta, magi, Fire worship, Ahura Mazda, Angra Mainyu.

Zərdüştlük təlimi İran dilində tərtib olunmuş "Avesta" dini kitabında əks olunmuşdur. "Avesta"ya sonralar əlavə edilmiş hissələrində Zərdüşt kahinləri "maq" yox, "atravan" yəni "od saxlayan" adını daşıyırdı. Qədim Azərbaycan ərazisində belə kahinlərin adı barədə məlumat qalmayıb. Midiyada atravan məhfumunun müqabili atropat "od saxlayan, odla saxlanan" olmuşdur. Hər iki məhfumun İran dilləri əsasında izah edilməsinə baxmayaraq, atəşpərəstlər müxtəlif etnoslara mənsub olmuşlar. Bəzi tədqiqatçılar Midiya maqlarını İran mənşəli hesab etmir, onları turanı (türk) tayfalarına aid edirlər. Zərdüştlük təlimi qədim Azərbaycan ərazisində də yayılmışdır. Hətta, Azərbaycanı Zərdüştün vətəni hesab etmişlər. Zərdüşt (Zaratuşra , Zaroasta) zərdüştlük təliminin banisi idi. Onun yaşadığı məkan və dövr mübahisəlidir. Əsasən, e.ə VII əsrdə yaşaması ehtimalına üstünlük verilir. Zərdüştlüyün Orta Asiyada yaranmması və sonra İranda yayılması da ehtimal edilir. Lakin bu mülahizələr öz - özlüyündə hələ də mübahisəlidir. Hər halda, oda sitayiş İran və Azərbaycan ərazisi ilə daha çox bağlı idi. Zərdüşt öz təlimində Ahuramazdanı (Hörmüz) yeganə ali tanrı kimi qələmə verir, onu kainatın və bütün canlıların yaradıcısı hesab edirdi. Hörmüz xeyir və həqiqəti , onun qardaşı Əhrimən isə şər qüvvələri təmsil edirdi. Zərdüştün çağırışı ilə insanlar Əhrimən və onun köməkçisi olan divlərə qarşı mübarizə aparmalı idilər. Bu təlimə görə xeyirlə şər, yalanla həqiqət arasında mübarizə gedir, lakin sonda xeyir və həqiqət şərə və yalana qalib gəlməlidir.

"Avesta"nın ən qədim hissəsini qatlar təşkil edir. Qatların dili çox qəlizdir və çətin başa düşülür. "Avesta"da maldarlıq və təsərrüfat sahəsi təbliğ olunur. Onun Yasnada çağırışı belədir: "Mən bu torpaqda mal-qara saxlayan hər bir sahibkara sərbəst hərəkət və azad həyat təmin edirəm... Mal-qaranı tutub aparmaqdan, Mazda məsləkli kəndlərə ziyan vurub talamaqdan imtina edirəm. Mən ancaq ziyankar, yalançı, bədxah divlərlə birgə olmaqdan imtina edirəm... Divlərdən və onların tərəfdarlarından, cadugərlərindən və onların tərəfdarlarından, canlı məxluqu zorakılıq işlədənlərdən imtina edirəm." Zərdüşt özünü Ahuramazdanın pərəstişkarı elan edir. Ahuramazdaya sitayiş edənlərə axirət dünyasında işıqlı həyat vəd olunurdu. Yaştlarda

Zərdüşt ilk xeyirxah fikir sahibi, ilk kahin, döyüşçü və maldar, divlərdən (köhnə dinlərdən) birinci üz döndərən, Ahuramazdaya birinci sitayiş edən kimi qələmə verilmişdir. İlk dövrlərdə Zərdüşt təliminin əsasını maldarlığı inkişaf etdirməklə şər qüvvələrə qarşı mübarizə aparmaq fikri təşkil edirdi. Zərdüştün təlimi dinə sitayiş etməyə, əkinçiliklə məşğul olmağa, ailə qurmağa, torpağı becərməyə, əməyi sevməyə səsləyirdi. "Avesta"da deyilir: "Kim əkir, taxıl becərirsə, o, həqiqətən əkir (yaradır), Mazda inamını aşılayır , Mazda inamına çörək verir...Qoy evdə həmişə un xörəyi olsun ki, divləri lərzəyə salsın. Zərdüştün təlimi əhali arasında mövcud olan əkinçilik və maldarlıq ənənələrini tərənnüm etmişdir. Sonralar atəşpərəstlik dini maqlar tərəfindən zərdüştlüklə qarışdırılmış və əhali arasında yayılmışdır. Əslində, atəşpərəstlik zərdüşt təlimindən asılı olmadan meydana gəlmişdir. Eramızdan VII əsrinə qədər öz varlığını saxlamışdı.

Fəlsəfənin Şərqdə, yoxsa Qərbdə meydana gəlməsi mövzusu yunan filosofları arasında mübahisə doğururdu. Qədim yunan fəlsəfə tarixçisi Diogen Laertsi bu həqiqəti qısa məlumatlarda əks etdirib. Həmin müəllifin II əsrin sonları III əsrin əvvələrində yaşadığı elmdə ehtimal edilir. Diogenin yazdığı "Məşhur filosofların həyatı, təlimləri və kəlamları haqqında" - yunan filosoflarının tarixi ensiklopediyasında fəlsəfə ilə tarixdə birinci şərqlilərin məşğul olduqları fikirlərinə toxunur. O, farslarda, babilistanlılarda, hindlilərdə, misirlilərdə, bəzi başqa xalqlarda fəlsəfənin qədim mənşəyindən danışırdı. Ancaq buna bir ellinli (yunanlı) təəssübkeşi kimi baxdığına görə məsələnin dərininə getmirdi. "Hər halda, - deyirdi o, - ellinlərin kəşfini barbarlara istinad etmək böyük yanlışlıqdır: nəinki filosoflar, həm də bütün bəşər növü başlanğıcını ellinlərdən alıb. Mövqeyini təsdiqləmək üçün yunanların fəlsəfi yönlü rəvayətlərinə əsaslanırdı... Bununla belə, zərdüştlük kahinlərindən – maqlardan, Zərdüşt təlimindən məlumatlarına müstəqil yer ayırırdı. Bu cəhət isə əslində zəruri bir gerçəklikdən doğurdu: Zərdüştün İşıq, Xeyir idealı yayan görüşləri yunan fəlsəfəsi tarixinə davamlı təsir etmişdi. Maqların bu baş kahini, yunanların fəlsəfi yaddaşında "Zoroastr" adı ilə tarixdə məşhurlaşmışdı. Biz bu əsaslı tarixi gerçəyi qaynaqlardan üzə çıxaracağıq. Əsas niyyətimiz isə Avropa fəlsəfəsinin, ümumiyyətlə tarixin fəlsəfəsinin taleyində zərdüştlüyün əhəmiyyətli rolunu dolğun surətdə işıqlandırmaqdır.

Heraklitin məlum fikrinə görə, bütün Kainat atəşdən yaranıb."Hər şey atəşdən əmələ gəlib və atəşə çevriləcək". Dünyagörüşünün həmin əsasını zərdüştlük ənənəsi ruhunda ifadə edib. Bu ənənəyə dərin maraq onu həqiqətən atəşpərəst etmişdi. Onun atəşpərəst düşüncələri geniş təsir oyatmışdı, maraqla öyrənilirdi. Platon (e.ə. 437 – 347) fəaliyyətinin əvvəlində bu mənada heraklitçiliyə meyl göstərirdi. Bunun xeyirli fəlsəfi nəticələrini bəzi dialoqlarında əks etdirib. Zərdüştlüyün Platona təsirinin təzahürlərini, eyni zamanda, "Dövlət" əsərinin "Xeyir ideyası" bölməsində görürük. Bu bölmədə "əslində" işıq Allah mənasında Xeyirin təcəssümüdür.Gözlə görmək, qavramaq , duyğusunu bu ilahi başlanğıc şərtləndirir. Zərdüştün dininə görə İşıq – Xeyir allahı Hürmüzün təcəssümüdür. Bu mənada Pifaqorun Hürmüz haqqında fikrinə yenə diqqət edək: "O, maqlardan öyrənmişdi ki, onların Oromazd (Hürmüz) adlandırdıqları Allah cismən işığa, ruhən həqiqətə bənzəyir." Platonun həmin işıq fəlsəfəsi bu ideyadan meydana gəlmişdi. Deyildiyi kimi, Platon zərdüştlüyə Heraklitin irsi vasitəsilə qovuşmuşdu...

Dünya məqsədi kimi, işıq kimi varlıq da Zərdüşt dininin ali predmetidir. Burada işıq və qaranlıq, xeyir və şər arasında ziddiyyət mühüm yer tutur. Dünyanın kosmik və etik qüvvələrinə münasibətdə Zərdüşt dininin dualist xarakteri üzə çıxır. Beləliklə, "Avesta"da ifadə olunan zərdüştlük dünyagörüşünün təməlində dualizm durur. Dünya ikili xarakterdədir, iki zidd başlanğıca bölünür, xeyir və şərlə xarakterizə olunur. Dünyanın tarixi bu iki başlanğıcın - xeyir və şərin mübarizə tarixidir. Zərdüştlüyün əxlaqı məlum triadada öz əksini tapmışdır: xeyir niyyət, xeyir söz, xeyir əməl. "Avesta"da əks olunmuş Zərdüştlük mifilogiyası qədim Azərbaycan düşüncəsinə geniş təsir göstərmişdir. Atəşpərəstlik daha çox etik, estetik məzmunlu mifologiyadır. İşıqla qaranlıq toqquşmaları simvolları onda əzəli, təməli simvollardır. İşıq- həyatın qaynağı, saflıq və xeyir rəmzi timsalıdır. Varlığın nurlu, təmiz başlanğıcı yaşayışa rövnəq verən qüvvədir. Günəşə, işığa, oda tapınma paklıq mücəssəməsinə, gözəlliyə, müqəddəsliyə tapınmaqdır. Zərdüştlük insanı mənəvi təmizliyə, xeyirli, nəcib, işlərə istiqamətləndirir. Bu işıq səltənətində hakim Hürmüzdür. Ona əks olan başlanğıc Əhrimən qaranlıq səltənəti – şər, pislik, paxıllıq, ziyan üstündə qurulmuşdur. O, qarşısına çıxan hər şeyi dağıdır, insanların səadətini qısqanır,

hamıya pislik edir. Əhriməni məhv etmək, hər yedə işıq səltənətini bərqərar etmək zərdüştlükdə ali məqsəddir.

Mifoloji görüşlər sistemində zərdüştlük fəlsəfi ruhlu təsəvvürlər aşılayır. Xeyirə çağırış zərdüştlüyün başlıca məzmunudur. "Avesta"da təbliğ olunan dünyagörüşünün tərkib hissələrindən iri də ibtidai animizm-ruhun varlığına etiqaddır. İşığa və xeyirə sadiq bir inamla Zərdüşt Ahura Məzdaya (Hürmüzə) suallar verir: "Ey Ahura Məzda, səndən soruşuram, mənə bildir: Bu yeri aşağıda və enməyə qoyulmayan göyü yuxarıda saxlayan kimdir? Suyu, odu kimdir yaradan? Kimdir, küləyi və buludları hərəkətə gətirən? Ey Məzda, pak təbiətin yaradıcısı kimdir? Ey Ahura Məzda , səndən soruşuram, doğrusu, mənə bildir. Bu faydalı işığı və bu qaranlığı yaradan kimdir? Xoşluq gətirən yuxunun və oyaqlığın kimdir yaradıcısı? İnsanları ibadətə çağıran danın, günortanın və axşamın yaradıcısı kimdir?" Bu suallardan sonra Zərdüşt özü cavab verir: "Bütün bunların yaradıcısı Hürmüzdür və heç kim ona şərik çıxa bilməz!"

## Ədəbiyyat siyahısı

1. Azərbaycan tarixi, I cild, Bakı, Azərnəşr, 1994
2. Camal Mustafayev. Fəlsəfi - tarixi araşdırmalar."Borçalı" İctimai cəmiyyətinin nəşri. Bakı, 2013
3. Геродот. История, Ленинград, 1972
4. Аристотель. Сочинения, Том I, Москва, 1976
5. Квинт Курций Руф. История Александра Великого Македонского, Москва, 1963
6. Платон. Сочинения, Том II, Москва, 1970
7. Диоген Лаертский. О жизнь учёных и изречениях знаменитых философов, Москва, 1979

## Резюме

### ФИЛОСОФИЯ ЗОРОАСТРИЗМА

Зороастризм, одно из древнейших мировых религиозных учений, возникшее в Персии около 3500 лет назад, учило о борьбе между добром и злом. В основе зороастризма лежит учение о божестве Ахура-Мазда и его архангелах, борющихся с демоном Ангра-Майню. Священные тексты зороастризма, Авеста, включают Гаты и Ясны, содержащие молитвы и гимны. Основные принципы зороастризма — добродетель, правда и благочестие — повлияли на многие другие мировые религии. Современное сообщество зороастризма сосредоточено в Иране, Индии и других регионах, сохраняя свои древние обряды и традиции.

## Summary

### PHILOSOPHY OF ZOROASTRIANISM

Zoroastrianism, one of the oldest world religious doctrines, emerged in Persia around 3500 years ago, teaching about the struggle between good and evil. At the core of Zoroastrianism lies the doctrine of the deity Ahura Mazda and his archangels, battling against the demon Angra Mainyu. The sacred texts of Zoroastrianism, the Avesta, include the Gathas and Yasnas, containing prayers and hymns. The fundamental principles of Zoroastrianism—virtue, truth, and piety—have influenced many other world religions. The modern Zoroastrian community is concentrated in Iran, India, and other regions, preserving its ancient rituals and traditions

## "KARYERA HƏDƏFİNƏ DOĞRU: UĞURLU BAŞLANĞICIN SİRLƏRİ" MÖVZUSUNDA TƏLİM



*İlahə Tinavasova*

Dekabrın 10-da Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə Təbiət elmləri və mühəndislik fakültəsinin sonuncu kurs tələbələri üçün Bakı Modern Təhsil Kompleksinin Dillər departamentinin rəhbəri, Xəzər Universitetinin məzunu və müəllimi İlahə Tinavasova tərəfindən "Karyera hədəfinə doğru: uğurlu başlanğıcın sirləri" mövzusunda təlim keçirildi.

Təlimdə effektiv CV hazırlanması, iş axtarmağın yolları, peşəkar e-mail yazmağın qaydaları öyrədildi. Həmçinin, LinkedIn profilinin gücü, işaxtarma platformaları və s. mövzular ətrafında geniş müzakirələr aparıldı. Təlimin sonunda tələbələr faydalı məlumat və praktik tövsiyələr üçün İlahə Tinavasovaya təşəkkür etdilər və gələcəkdə bu kimi tədbirlərin daha çox təşkil olunmasını arzuladıqlarını bildirdilər.

## TRAINING SESSION TITLED "TOWARDS CAREER GOAL: SECRETS OF A SUCCESSFUL START"

On December 10, a training session titled "Towards Career Goal: Secrets of a Successful Start" was conducted for final-year students of the School of Science and Engineering, organized by the Career and Alumni Center. The training was led by Ilaha Tinavasova, head of the Languages Department at Baku Modern Education Complex, a Khazar University instructor and alumnus. The training covered effective CV preparation, job search strategies, professional email writing rules, and included extensive discussions about LinkedIn profile optimization, job search platforms, and related topics.

At the end of the training, students expressed gratitude to Ilaha Tinavasova for the valuable information and practical recommendations, and shared their hope for more such events to be organized in the future.



# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN 82-Cİ MƏŞĞƏLƏSİ
# THE 82ND SESSION OF THE "SCIENCE AND ART ASSEMBLY"


*Ramiz Yunus, Hamlet İsaxanlı*

Dekabrın 10-da Xəzər Universitetinin Mərkəz kampusunda universitetin "Elm və Sənət Məclisi"nin 82-ci məşğələsi keçirildi. Məşğələdə universitetin əməkdaşları, alim və mütəxəssislər iştirak edirdilər. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad.Hamlet İsaxanlı tədbiri açıq elan etdikdən sonra məclisin üzvü, görkəmli tarixçi alim və şair Şahin Fazilin xatirəsi yad olundu.

Prof.Akad. Hamlet İsaxanlı məclisin növbəti məruzəçisini - ABŞ-da yaşayan, tanınmış azərbaycanlı politoloq Ramiz Yunusu iştirakçılara təqdim etdi. Ramiz Yunusun "Çoxqütblü dünya və Cənubi Qafqaz üçün perspektivlər" mövzusunda məruzəsi iştirakçılar

On December 10, the 82nd session of the "Science and Art Assembly" was held at the Central Campus of Khazar University. University staff, scientists, and specialists participated in the session. After Khazar University's founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli officially opened the event, the memory of Shahin Fazil, a member of the Assembly and prominent historian and poet, was honored.

Prof. Acad. Hamlet Isakhanli introduced the next speaker to the participants - Ramiz Yunusov, a well-known Azerbaijani political scientist living in the USA. Ramiz Yunusov's presentation on "A Multipolar






tərəfindən maraqla dinlədildi.

Məruzə ətrafında müzakirələrdə Baba Bayramlı, Hamlet İsaxanlı (Xəzər Universiteti), Afət Seyidzadə (BDU), Solmaz Tohidi (AMEA Şərqşünaslıq İnstitutu) və Xatirə İsmayılova (AMEA Tarix və Etnologiya İnstitutu) çıxış etdilər.

World and Perspectives for the South Caucasus" was listened to with great interest by the participants.

During the discussion, Baba Bayramli, Hamlet Isakhanli (Khazar University), Afat Seyidzade (BSU), Solmaz Tohidi (ANAS Institute of Oriental Studies), and Khatira Ismayilova (ANAS Institute of History and Ethnology) spoke.



*Solmaz Tohidi*



*Xatirə İsmayılova*

Sonra Xəzər Universiteti Avrasiya Akademiyasının yaradılmasına həsr olunmuş film nümayiş etdirildi və məruzəçi Ramiz Yunusa Avrasiya Akademiyasının Mirzə Fətəli Axundzadə mükafatı təqdim olundu. Ramiz Yunus məşğələnin təşkilinə və mükafata görə təşəkkürünü bildirdi.

Afterwards, a film dedicated to the creation of the Khazar University Eurasia Academy was shown, and the speaker Ramiz Yunusov was presented with the Mirza Fatali Akhundov Award of the Eurasia Academy. Ramiz Yunusov expressed his gratitude for the organization of the session and the award.

***press.az/az/siyasi/ramiz-yunus-beseriyyet-yeniden-coxqutublu-dunyaya-dogru-irelileyir-79281***

## THE MAIN OBSTACLE TO THE PEACE AGREEMENT BETWEEN AZERBAIJAN AND ARMENIA

# DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ KONFRANSDA

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev dekabrın 10-da "Azərbaycanla Ermənistan arasında sülh sazişinə başlıca maneə" adlı beynəlxalq konfransda iştirak etmişdir.

Konfransda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycanın Ermənistanla sülhün əldə edilməsində maraqlı olduğunu bildirib. O qeyd edib ki, bununla belə, Ermənistanın davam edən ərazi iddiaları sülh prosesinə mane olur.

Azərbaycanın xarici işlər nazirinin müavini Elnur MəmmədovAzərbaycanın Ermənistana sülh sazişi barədə təklif göndərdiyini diqqətə çatdırıb. Sülhün əldə edilməsindəki maneələrdən danışan E.Məmmədov qeyd edib ki, Ermənistanın konstitusiyasındakı ərazi iddiaları sülhə əsas maneədir. Digər bir problem isə müxalifətin mövqeyidir.

Sonra konfransda "Ermənistan Konstitusiyasında və qanunlarında sülh müqaviləsinə maneələr" və "Sülh naminə konstitusiyaların dəyişdirilməsi – beynəlxalq təcrübələr" mövzularında panel müzakirələri aparılıb.

# HEAD OF DEPARTMENT AT INTERNATIONAL CONFERENCE

On December 10, Assoc. Prof. Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy, attended the international conference titled "The Main Obstacle to the Peace Agreement between Azerbaijan and Armenia".

Addressing the event, Farid Shafiyev, AIR Center Chairman, highlighted Azerbaijan's reconciliation efforts with Armenia. He stressed that, however, Armenia's ongoing territorial claims hinder the peace process.

Elnur Mammadov, Azerbaijan`s Deputy Foreign Minister, emphasized the country`s proposal for a peace treaty with Armenia, describing the territorial claims against Azerbaijan outlined in the Armenian Constitution as the primary obstacle for building peace. The other problem, according to him, is the stance of the opposition.

The conference then featured the panel discussions on "Obstacles to the Peace Treaty in the Constitution and Laws of Armenia" and "Changing Constitutions for Peace - International Experiences".

# ERASMUS+ DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ

Erasmus+

Dekabrın 11-də Xəzər Universitetinin koordinatorluq etdiyi ERASMUS+ DIRNA layihəsi çərçivəsində onlayn görüş keçirildi.

Görüşdə Azərbaycan tərəfdaş universitetləri və İzmir Yüksək Texnologiya İnstitutunun nümayəndələri iştirak edirdi. DIRNA layihəsi çərçivəsində qurulacaq elektron arxiv platformasının strukturu, metadataların hansı başlıqlara uyğun daxil olunması və daha sonrakı mərhələlərdə hər bir universitetdə sistemin hansı formada fəaliyyət göstərməsi haqqında müzakirələr aparıldı.

# MEETING WITHIN THE ERASMUS+ DIRNA PROJECT

On December 11, an online meeting was held within the ERASMUS+ DIRNA project, coordinated by Khazar University.

The meeting was attended by representatives from Azerbaijani partner universities and the Izmir Institute of Technology. Discussions were held about the structure of the electronic archive platform to be established within the DIRNA project, the metadata input according to specific headings, and how the system would operate in each university in subsequent stages.

# DOKTORANTURA TƏLƏBƏSİ İŞ-HƏYAT BALANSINA DAİR ONLAYN SEMİNAR KEÇİRİB
# PHD STUDENT LEADS ONLINE SEMINAR ON WORK-LIFE BALANCE

Dekabrın 11-də İqtisadiyyat və menecment departamentinin təşkilatçılığı ilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində İstanbul Universitetində təhsil alan doktorant Murad Əliyev iş-həyat balansına dair onlayn seminar keçirmişdir. Seminarda Xəzər Universitetinin tələbələri, professor-müəllim heyəti və əməkdaşları iştirak ediblər.

Murad Əliyev "Müxtəlif nəsillər arasında iş-həyat balansının işçilərin cəlb olunmasına təsiri" mövzusunda məruzəsində iş-həyat balansının işçilərin motivasiyası, məhsuldarlığı və işdən məmnunluğuna əhəmiyyətli təsirini vurğulayıb. Azərbaycan universitetlərində və klinikalarında işləyən müxtəlif nəsillərin iş-həyat harmoniyasına nail olmaq üçün qarşılaşdıqları unikal gözləntiləri və çətinlikləri araşdırdığı elmi işi barədə ətraflı məlumat vermişdir.

İnteraktiv formada keçən seminarda məruzəçi və iştirakçılar arasında müzakirələr aparılmışdır.

On December 11, the Department of Economics and Management hosted an engaging online seminar featuring Murad Aliyev, a PhD student at Istanbul University within the framework of the "State Program for Increasing the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019-2023". Students, faculty, and administrative staff of Khazar University participated in the seminar on work-life balance.

During his presentation, Aliyev highlighted the significant impact of work-life balance on employee motivation, productivity, and job satisfaction. He provided detailed information about his scientific work that explores the unique expectations and challenges faced by different generations working in Azerbaijani universities and clinics to achieve work-life harmony.

The seminar fostered high interactivity through questions and discussions.

# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ ELMİ SEMİNARDA

Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi, AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi Dr. Yaqub Məmmədov dekabrın 11-də Bakı Dövlət Universitetində Azərbaycanda paleolit dövrünün öyrənilməsi məsələlərinə həsr olunan elmi seminarda iştirak və çıxış etmişdir.

Dr. Yaqub Məmmədov çıxışında ötən 70 ildə qədim daş dövrünün öyrənilməsi istiqamətindəki tədqiqatlar və onun rəhbərliyi ilə aparılmış "Qazax paleolit arxeoloji ekpedisiyası" nın əldə etdiyi nəticələr ilə bağlı geniş məlumat vermişdir. Nəzərə çatdırmışdır ki, həmçinin, bu il öz rəhbərliyi ilə Ağstafa-Qazax rayonları ərazisində arxeoloji kəşfiyyat aparılmış və yeni orta paleolit abidəsi (Candar göl paleolit emalatxanası) qeydə alınmışdır. Çıxışının sonunda o, tələbə və magistrantların suallarını cavablandırmışdır.

# DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY INSTRUCTOR AT SCIENTIFIC SEMINAR

Dr. Yagub Mammadov, a teacher from Khazar University's Department of History and Archaeology and a leading researcher at ANAS Institute of Archaeology and Anthropology, participated and presented at a scientific seminar dedicated to Paleolithic period studies in Azerbaijan, held at Baku State University on December 11.

In his presentation, Dr. Yagub Mammadov provided comprehensive information about research conducted over the past 70 years in the study of the ancient stone age and the results obtained by the "Gazakh Paleolithic Archaeological Expedition" under his leadership. He noted that this year, under his supervision, an archaeological exploration was conducted in the Aghstafa-Gazakh regions, and a new Middle Paleolithic site (Jandar Lake Paleolithic workshop) was recorded. At the end of his presentation, he answered questions from students and graduate students.

## DÖVLƏT PROQRAMI ÇƏRÇİVƏSİNDƏ FRANSANIN STRASBURQ UNİVERSİTETİNDƏ TƏHSİL ALAN DOKTORANTIN SEMİNARI

## SEMINAR BY A DOCTORAL STUDENT STUDYING AT THE UNIVERSITY OF STRASBOURG UNDER THE STATE PROGRAM

Dekabrın 11-də Neft mühəndisliyi departamenti və Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin təşkilatçılığı ilə "Fransanın Elzas şəhərində geotermal sahələr ətrafında karbonatların mexaniki və fiziki xassələri" mövzusunda onlayn seminar təşkil olundu.

Seminarın məruzəçisi Sərvər Məmmədov tədqiqat mövzusu ilə bağlı apardığı müşahidə və araşdırmaların nəticələrini təqdim etdi.

Dokorant Sərvər Məmmədov "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Fransa Respublikasının Strasburq Universitetində "Yer, ətraf mühit və geofiziki elmlər" ixtisası üzrə doktorantura təhsili alır.

Tədbir Teams platforması üzərindən onlayn şəkildə keçirildi.

On December 11, an online seminar was organized by the Department of Petroleum Engineering and the Graduate School of Science, Arts and Technology, on the topic "Mechanical and Physical Properties of Carbonates around Geothermal Areas in the Alsace City of France".

The seminar speaker, Sarvar Mammadov, presented the results of his observations and research related to the research topic.

Doctoral student Sarvar Mammadov is pursuing his doctoral education in the specialty of "Earth, Environment and Geophysical Sciences" at the University of Strasbourg in the French Republic, based on a tripartite agreement between the Ministry of Science and Education of the Republic of Azerbaijan and Khazar University, within the framework of the "State Program for Increasing International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019-2023".

The event was held online via the Teams platform.

## "PSİXİ DAYANIQLILIQ VƏ İNTİHARIN QARŞISININ ALINMASI" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "MENTAL RESILIENCE AND SUICIDE PREVENTION"

Dekabrın 11-də Xəzər Universitetində Psixologiya departamentinin koordinatoru Mələk Kərimova tərəfindən "Psixi dayanıqlılıq və intiharın qarşısının alınması" mövzusunda seminar keçirilib. Tədbirdə universitetin əməkdaşları, psixologiya ixtisasında təhsil alan tələbələr və psixoloqlar iştirak ediblər. Seminarın məqsədi intihara, xüsusilə uşaq və yeniyetmələr arasında intihar hallarına qarşı psixi dayanıqlılığın artırılmasına dəstək göstərmək idi. İntihar, psixi dayanıqlılığın artırılması məsələsi üzərində fikir mübadiləsi aparılıb. Psixi dayanıqlılığın gücləndirilməsinin intiharların qarşısını almaq üçün əsas addımlardan biri olduğu qeyd edilib. Seminarda universitetin Hüquq departamentinin müdiri Cabir Xəlilov mövzu ilə bağlı dəyərli tövsiyələrini bölüşüb. O, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə qabaqlayıcı və maarifləndirici fəaliyyətlərin daha da gücləndirilməsinin əhəmiyyətini qeyd edib. Həmçinin, məişət zorakılığından əziyyət çəkən yetkinlik yaşına çatmamış şəxslərin müəyyən edilməsi və onların hüquqlarının qorunması üçün daha səmərəli hüquqi tədbirlərin görülməsini vurğulayıb.

Tədbir sualların cavablandırılması ilə başa çatıb.

On December 11, a seminar on "Mental Resilience and Suicide Prevention" was held at Khazar University by Psychology Department Coordinator Malak Karimova. University staff, psychology students, and psychologists participated in the event. The seminar's purpose was to support increasing mental resilience against suicide, particularly among children and adolescents.

Discussions were held on suicide and enhancing mental resilience. It was noted that strengthening mental resilience is one of the primary steps in preventing suicides.

At the seminar, the university's Law Department Head Jabir Khalilov shared valuable recommendations. He emphasized the importance of further strengthening preventive and educational activities to increase the effectiveness of measures in this area. He also highlighted the need for more effective legal measures to identify and protect the rights of minors suffering from domestic violence.

The event concluded with a question-and-answer session.

## DEPARTAMENTİN DOKTORANTLARI ELMİ KONFRANSDA

Siyasi elmlər və fəlsəfə departamentinin doktorantları Rahil Dadaşlı və Elmir Bədəlov Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Sumqayıt Dövlət Universitetinin təşkilatçılığı ilə dekabrın 10-11-də Sumqayıt Dövlət Universitetində Yaşıl dünya naminə həmrəylik ilinə həsr olunmuş Doktorantların və gənc tədqiqatçıların XXVII (NASCO XXVII) Respublika Elmi Konransında iştirak etmişlər.

Konfransın keçirilməsində əsas məqsəd doktorantura səviyyəsində təhsilalanların və gənc tədqiqatçıların elmi-tədqiqat fəaliyyətlərinin nəticələrinin ölkədəki elm adamları ilə müzakirəsini təşkil etmək, elmi-tədqiqat yaradıcılıqlarında stimullaşdırıcı imkanlar yaratmaqdır.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNDƏ DİSSERTASİYA MÜDAFİƏSİ

Dekabrın 12-də  Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin indoneziyalı magistr tələbəsi Alif Paramardhika Putera`nın "Examining Diplomatic Interplay: A Study of Bilateral and Multilateral Mechanisms in Indonesia-Azerbaijan Relations" ("Diplomatik qarşılıqlı əlaqənin araşdırılması: İndoneziya-Azərbaycan münasibətlərində ikitərəfli və çoxtərəfli mexanizmlərin tədqiqi") mövzusunda dissertasiya işinin müdafiəsi keçirilib. Müdafiə komissiyasının sədri - Bakı Dövlət Universiteti Politologiya və sosiologiya kafedrasının müəllimi  Dr. Mehman Həsənov, komissiya üzvləri - Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev, departamentin müəllimləri Prof. Vəsilə Hacıyeva və Gülcan Qulaxmed`in iştirakı ilə keçən  tədbirdə Alif Paramardhika Putera çıxış etmiş və sualları cavablandırmışdır. Mövzu ətrafında müzakirələr keçirildikdən sonra iş müsbət qiymətləndirilib.

## PHD CANDIDATES OF THE DEPARTMENT AT THE SCIENTIFIC CONFERENCE

Ph.D candidates of the Department of Political Science and Philosophy, Rahil Dadashli and Elmir Badalov, participated in the "XXVII Republican Scientific Conference of Doctoral Students and Young Researchers (NASCO XXVII)" dedicated to the Year of Solidarity for a Green World at Sumgayit State University on December 10-11 organized by the Ministry of Science and Education of the Republic of Azerbaijan, the State Agency for Science and Higher Education, and Sumgayit State University.

The main goal of this conference is to organize a discussion of the results of the scientific research activities of doctoral students and young researchers with scientists in the country, and to create stimulating opportunities in their scientific research activities.

## DISSERTATION DEFENSE AT THE DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY

On December 12, the defense of Alif Paramardhika Putera, an international master's student from Indonesia on the topic of "Examining Diplomatic Interplay: A Study of Bilateral and Multilateral Mechanisms in Indonesia-Azerbaijan Relations" took place at the Department of Political Science and Philosophy at Khazar University.

The chairman of the defense commission was Assoc. Prof. Mehman Hasanov, a lecturer at the Department of Political Science and Sociology at Baku State University. The commission members were Assoc. Prof. Orkhan Valiyev, department head at Khazar University, and Prof. Vasila Hajiyeva, and Guljan Kulakhmet, lecturers at the Department. After presentations and discussions on the topic, the work was positively evaluated.





*Nailə Xələfli*

# EIGROUP ŞİRKƏTİNİN TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ

Dekabrın 12-də Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə eiGroup şirkətinin Təbiət elmləri və mühəndislik fakültəsinin 3-cü və 4-cü kurs tələbələri ilə görüşü keçirildi. Görüşdə istedadların cəlb edilməsi üzrə baş mütəxəsis Nailə Xələfli şirkətin əsas missiyası,



*Səbinə Qulizadə*

fəaliyyət istiqamətləri, icra etdiyi layihələr, mövcud vakansiyalar haqqında ətraflı məlumat verdi. Həmçinin, şirkətin mütəxəssisi Səbinə Qulizadə CV-lərin hazırlanma qaydaları, iş müsahibələrində diqqət yetirməli olunan məqamlar barədə də praktik bilgilər verdi.

Qeyd edək ki, eiGroup şirkətinin təməli 2015-ci ildə Xəzər Universiteti və neft-qaz sənayesindən bir qrup mütəxəssisin əməkdaşlığı nəticəsində yaranan eiLink Ar-Ge Mərkəzin əsasında qoyulub. Bu mərkəzin qarşısında duran ilkin ideya birgə tədqiqat və elmi araşdırmalar vasitəsilə təhsil və sənayenin bir-birindən faydalanması üçün qarşılıqlı imkan yaratmaq idi.

Tədbirin sonunda tələbələrin sualları mütəxəssislər tərəfindən cavblandırıldı.

# MEETING OF EIGROUP WITH STUDENTS

On December 12, a meeting was organized by the Career and Alumni Center between eiGroup and 3rd and 4th-year students of the School of Science and Engineering. At the meeting, Naila Khalafli, the chief specialist in talent engagement, provided detailed information about the company's main mission, areas of activity, implemented projects, and current vacancies. Additionally, the company's specialist Sabina Gulizada shared practical insights about CV preparation and key points to focus on during job interviews.

It is worth noting that the foundation of eiGroup was laid in 2015 based on the eiLink R&D Center, which emerged from a collaboration between Khazar University and a group of specialists from the oil and gas industry. The initial idea behind this center was to create mutual opportunities for education and industry to benefit from each other through joint research and scientific studies.

At the end of the event, the students' questions were answered by the specialists.

# TƏLƏBƏLƏR MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ

Dekabrın 13-də Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin I kurs tələbələri Tarix və arxeologiya departamentinin müəllimi Dr. Yaqub Məmmədovun təşkilatçılığı ilə Milli Azərbaycan Tarixi Muzeyində olublar.

# STUDENTS VISIT THE NATIONAL MUSEUM OF AZERBAIJAN HISTORY

On December 13, first-year students from the School of Science and Engineering of Khazar University visited the National Museum of Azerbaijan History, organized by Department of History and Archaeology teacher Dr. Yagub Mammadov.



Milli Azərbaycan Tarixi Muzeyində 2024 - cü ilin aprel ayında istifadəyə verilən ekspozisiyada tarixin ən qədim çağlarından indiyədək olan dövrlərə aid 300 mindən çox nümunə nümayiş etdirilir.

Muzeyin bələdçisi Gülnarə Əzimova muzeydə qorunan tarix-mədəniyyət nümunələri haqqında geniş məlumat vermiş və tələbələrin suallarını cavablandırmışdır.

Muzeylərlə tanışlıq tələbələrin qazandıqları nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət edir və bu iş mütəmadi təşkil olunur.

In the museum's exposition, opened in April 2024, more than 300,000 exhibits are displayed, representing historical periods from the most ancient times to the present day.

Museum guide Gulnara Azimova provided comprehensive information about the historical and cultural exhibits preserved in the museum and answered students' questions.

Familiarization with museums serves to strengthen the theoretical knowledge gained by students, and this work is organized on a regular basis.

# ORTAQ TÜRK ƏLİFBASININ PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ HAQQINDA KONFRANS

# CONFERENCE ON THE PROBLEMS AND PERSPECTIVES OF THE COMMON TURKIC ALPHABET





*Hamlet İsaxanlı*

Dekabrın 13-də Xəzər Universitetinin Neftçilər kampusunda Türk dünyasının mədəniyyət, dil və əlifba məsələlərinə həsr olunmuş "Ortaq Türk keçmişindən gələcəyinə doğru: ümumtürk əlaqələrinin güclənməsində ortaq əlifbanın rolu" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirildi. Tədbirin məqsədi Türk dövlətləri arasında dil, mədəniyyət və elmi əməkdaşlıq sahəsində ortaq dəyərləri təşviq etmək, həmçinin ortaq əlifbanın tətbiqi istiqamətində aparılan işləri müzakirə etmək idi.



*Kəmalə Ələkbərli*

On December 13, an international scientific-practical conference titled "From the Common Turkic Past to the Future: The Role of a Common Alphabet in Strengthening Turkic Relations" was held at the Neftchiler Campus of Khazar University, dedicated to the culture, language, and alphabet issues of the Turkic world. The purpose of the event was to promote common values in language, culture, and scientific cooperation among Turkic states, and to discuss the work being carried out towards the implementation of a common alphabet.



*Şükrü Haluk Akalın*

The conference opening was initiated by the coordinator of the Khazar University Institute



*Nizami Cəfərov*

Konfransın açılışı Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) koordinatoru Dos. Aynur Qəzənfərqızının çıxışı ilə baş tutdu. O, Türk dövlətlərinin ortaq mədəni keçmişini xatırladaraq, dil və əlifbanın inteqrasiyadakı rolundan bəhs etdi. Həmçinin, belə tədbirlərin Türk dünyası arasında əlaqələri daha



*Nərgizə Qulamova*

da gücləndirmək üçün vacib olduğunu vurğuladı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxışında ortaq əlifbanın Türk dövlətləri arasında həm yazılı ünsiyyəti, həm də mədəni birliyi gücləndirmək üçün mühüm vasitə oldu-

*(Ardı səh.62-də)*

of Cultural Anthropology and Folklore (ICAF), Assoc. Prof. Aynur Gazanfargizi. She recalled the shared cultural past of Turkic states and discussed the role of language and alphabet in integration. She also emphasized that such events are crucial for further strengthening relations within the Turkic world.



*Qulu Məhərrəmli*

Khazar University's founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, noted in his speech that a common alphabet is an important means of strengthening both written communication and cultural unity among Turkic states, and highligh-



*Aynur Qəzənfərqızı*

ted the significance of joint scientific research and initiatives in this area.

*(To be continued page 62)*

ğunu, bu sahədə həyata keçiriləcək birgə elmi tədqiqatların və təşəbbüslərin əhəmiyyətini qeyd etdi.

Azərbaycan Atatürk Mərkəzinin müdiri, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri Akad. Nizami Cəfərov Türk dillərinin tarixi inkişafından bəhs etdi. O, ortaq əlifbanın strateji əhəmiyyətinə diqqət çəkərək, bunun həm mədəni, həm də siyasi



*Burul Sagınbaeva*

baxımdan Türk dünyası üçün böyük imkanlar açdığını bildirdi. Əlavə olaraq, o vurğuladı ki, ortaq əlifba keçmişdə ortaq əlifbadan istifadə etmiş qədim Türk dövlətləri kimi, yenidən vahid mədəni dəyərlərin dirçəlməsinə şərait yaradacaq.



*Zəminə Rüstəmbəyli*

BDU-nun professoru Qulu Məhərrəmli ortaq əlifbanın dil və mədəniyyətin qorunmasında əsaslı rol oynadığını qeyd etdi. Xüsusilə kiçik dillərin və ləhcələrin qorunması üçün ortaq



*Erden Qajibekov*

Academician Nizami Jafarov, director of the Azerbaijan Atatürk Center and head of the General Linguistics Department at Baku State University, spoke about the historical development of Turkic languages. Drawing attention to the strategic importance of a common alphabet, he stated that this opens up significant opportunities for the Turkic world, both culturally and politically.



*Cazgül Cakakova*

Additionally, he emphasized that the common alphabet would create conditions for the revival of unified cultural values, similar to ancient



*Elçin İbrahimov*

əlifbanın fonetik və struktur xüsusiyyətlərinin xüsusi əhəmiyyət daşıdığını bildirdi. Həmçinin, bu yanaşmanın Türk dillərinin qlobal səviyyədə tanıdılmasına da töhfə verəcəyini qeyd etdi.

UNESCO Türkiyə Milli Komissiyasının başqanı, Ankara Hacı Bayram Vəli Universiteti Türk Folkloru Bölümü başqanı Prof. Öcal Oğuz ortaq əlifbanın mədəni dəyərlərin nəsildən-nəslə ötürülməsinə yeni imkanlar yaratdığını və bu sahədə beynəlxalq təşkilatların əməkdaşlığını artırmaq lazım olduğunu bildirdi. Tədbirə videomesajla qatılan Öcal Oğuz, xüsusilə rəqəmsal mühitdə ortaq əlifbanın istifadəsinə dair layihələrin əhəmiyyətini vurğuladı.

Dos. Nərgizə Qulamova Nəvai İnnovasiyalar Universitetinin rektoru Prof. Jurabek Movlanov\`un konfransa xoş diləklərini çatdırdı. Həmçinin, o, Özbəkistanın bu sahədə təcrübəsini təqdim edərək, ortaq əlifbanın təhsil sahəsindəki üstünlüklərindən danışdı və bunu Türk dövlətləri arasında bilik mübadiləsini genişləndirəcək addım kimi dəyərləndirdi.

Açılış toplantısının sonunda söz Türk Dil Qurumunun sabiq başqanı, Hacettepe Universitetinin professoru Şükrü Haluk Akalın\`a verildi. Şükrü Haluk Akalın konfrans iştirakçılarına uğurlar dilədi və müəllifi olduğu kitablarını

*(Ardı səh.64-də)*

Turkic states that previously used a common alphabet.

BSU Professor Gulu Maharramli noted the fundamental role of a common alphabet in preserving language and culture. He specifically highlighted the special importance of the phonetic and structural characteristics of the common alphabet for preserving smaller languages and dialects. He also noted that this approach would



*Əli Şamil*

contribute to the global recognition of Turkic languages.

Prof. Öcal Oğuz, head of the UNESCO Turkish National Commission and chair of the Turkish Folklore Department at Ankara Hacı Bayram Veli University, stated that the common alphabet creates new opportunities for transferring cultural values across generations and that international organization collaboration needs to be increased in this area. In his video message, Öcal Oğuz emphasized the importance of projects related to the use of a common alphabet in the digital environment.

Assoc. Prof. Nargiza Gulamova conveyed the well-wishes of Navai Innovations University's rector, Prof. Jurabek Movlanov. She also presented Uzbekistan's experience in this area, discussing the advantages of a common alphabet in education and evaluating it as a step that would expand knowledge exchange among Turkic states.

At the end of the opening session, the floor was given to Şükrü Haluk Akalın, former president of

*(To be continued page 64)*

Hamlet İsaxanlıya təqdim etdi.

Açılış toplantısının ardından plenar iclas keçirildi. Plenar iclasın moderatoru akademik Nizami Cəfərov idi. Bu sessiyada çıxışlar ortaq əlifbanın texnoloji və dilçilik aspektlərinə həsr olundu.

Prof. Şükrü Haluk Akalın "Türk Dünyasında ortaq əlifbanın yayğınlaşdırılmasında süni zəka və texnologiyanın rolu, Beynəlxalq Qazax Dil Qurumunun və Türkoloji Mərkəzin başqanı Prof. Erden Qajibekov "Ortaq Türk əlifbası: əsas və cari problemlər" mövzularında məruzə etdilər. Sonra Qarabağ Universitetinin Elm şöbəsinin müdiri Dos. Elçin İbrahimovun və AMEA Folklor İnstitutunun Beynəlxalq əlaqələr bölümünün müdiri Əli Şamilin çıxışları dinlənildi.

Konfrans daha sonra öz işini bölmə iclasları ilə davam etdirdi. Qırğızıstanlı türkoloq Prof. Burul Sagınbaeva və azərbaycanlı türkoloqlar Zəminə Rüstəmbəyli, Kəmalə Ələkbərli, Hindistanın Jamia Millia Islamia Dövlət Universitetinin tədqiqatçısı Dr. Noushad Mancheri, Qırğızıstan-Türkiyə Manas Universitetindən Dr. Cazgül Cakakova, Dilbər Camalı da bölmə iclaslarındakı çıxışlarında ortaq əlifba ilə bağlı olduqca maraqlı fikirlər səsləndirdilər.

Konfransın sonunda iştirakçılar qeyd etdilər ki, ortaq əlifbanın tətbiqi təkcə dil və mədəniyyət sahəsində deyil, həm də siyasi və iqtisadi əməkdaşlıq üçün geniş imkanlar yarada bilər. Əldə olunan razılaşmalar arasında ortaq əlifba üzrə mütəxəssislərdən ibarət işçi qruplarının yaradılması və gələcəkdə bu mövzuda birgə elmi-praktik layihələrin həyata keçirilməsi haqqında təkliflər yer aldı.

Tədbirin bədii hissəsində iştirakçılara Xəzər Universitetinin tələbələrdən ibarət xor və rəqs kollektivlərinin çıxışlarından, həmçinin Onur Əliyevin ifasında aşıq musiqisindən ibarət konsert təqdim olundu.

**Aydan Nəsirli**
*Xəzər Universiteti, Filologiya (İngilis dili və ədəbiyyatı) ixtisası, II kurs*

the Turkish Language Association and professor at Hacettepe University. Şükrü Haluk Akalın wished the conference participants success and presented his authored books to Hamlet Isakhanli.

Following the opening session, a plenary session was held, moderated by Academician Nizami Jafarov. The presentations in this session were dedicated to the technological and linguistic aspects of the common alphabet.

Prof. Şükrü Haluk Akalın presented on "The Role of Artificial Intelligence and Technology in Spreading the Common Alphabet in the Turkic World", and Prof. Erden Gajibekov, president of the International Kazakh Language Institution and Turkology Center, spoke on "Common Turkic Alphabet: Main and Current Problems". This was followed by presentations by Assoc. Prof. Elchin Ibrahimov from Karabakh University's Science Department and Ali Shamil from ANAS Folklore Institute's International Relations Department.

The conference continued with section meetings. Kyrgyz turkologist Prof. Burul Sagınbaeva, Azerbaijani turkologists Zamina Rustambayli and Kamala Alakbarli, Indian researcher Dr. Noushad Mancheri from Jamia Millia Islamia State University, Dr. Cazgül Cakakova and Dilber Jamali from Kyrgyzstan-Türkiye Manas University presented very interesting views during the section meetings.

At the conference's conclusion, participants noted that the implementation of a common alphabet could create broad opportunities not only in the fields of language and culture but also for political and economic cooperation. The agreements reached included proposals for creating working groups of specialists on the common alphabet and implementing joint scientific-practical projects in the future.

The artistic portion of the event featured a concert including performances by Khazar University's student choir and dance collective, as well as ashug music performed by Onur Aliyev.

**Aydan Nasirli**
*Khazar University Philology (English Language and Literature), 2nd year*

# DEPARTAMENT MÜDİRİNƏ DOSENT ELMİ ADI VERİLDİ

Dekabrın 13-də Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyasında fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələri, professor və dosent elmi adlarına dair diplomlar təqdim edilmişdir.

# DEPARTMENT HEAD AWARDED ASSOCIATE PROFESSOR TITLE

On December 13, diplomas for PhD and Doctor of Sciences academic degrees, as well as professor and associate professor titles were presented at the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.




Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Orxan Vəliyevə də siyasi elmlər elm sahəsinin 5904.01 – siyasi institutlar və sistemlər ixtisası üzrə dosent elmi adı verildiyinə dair diplom təqdim olunmuşdur.

Orxan Valiyev, Head of the Department of Political Sciences and Philosophy at Khazar University and PhD in Political Sciences, was also presented with a diploma awarding him the associate professor title in the specialty 5904.01 - political institutions and systems in the field of political sciences.

# XƏZƏR UNİVERSİTETİNDƏ IX BEYNƏLXALQ RUMİ SİMPOZİUMU





*Nəzakət Məmmədli*

# IX INTERNATIONAL RUMI SYMPOSIUM AT KHAZAR UNIVERSITY

Dekabrın 12-13-də Xəzər Universitetində Şərqin böyük filosofu Mövlana Cəlaləddin Rumi irsinin tədqiqinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirildi. Şimali Kipr Yaxın Şərq Universitetinin Rumi Araşdırmalar Mərkəzi tərəfindən Mövlana, mövləvilik, təsəvvüf, hikmət mövzularında ənənəvi olaraq hər il düzənlənən elmi simpozium bu il Xəzər Universiteti Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutu (MƏFAİ) ilə birgə təşkilatçılıqla universitetdə baş tutdu. Qeyd edək ki, "Rumi elmi simpoziumu" bir çox ölkələrdən dəyərli alim və tədqiqatçılar tərəfindən təsəvvüf ədəbiyyatı,

On December 12-13, an international scientific conference dedicated to the study of the legacy of the great Eastern philosopher Mevlana Jalaluddin Rumi was held at Khazar University. The scientific symposium, traditionally organized annually by the Rumi Research Center of Near East University of Northern Cyprus on topics of Mevlana, Mevlevi order, Sufism, and wisdom, was held this year at the university in joint organization with Khazar University's Mevlana Literary-Philosophical Research Institute. It should be noted that the "Rumi Scientific Symposium" is a prestigious scientific



*Nargiza Shoaliyeva (Özbəkistan), Elmira Məmmədova-Kekeç (Azərbaycan)*

fəlsəfə, mövləviliyə elmi aspektdən baxış, irfan və hikmətlə bağlı səriştəli araşdırmaların təqdim olunduğu mötəbər elmi tədbirdir.

Simpozium dekabrın 12-də üz-üzə, 13-də isə onlayn formatda həyata keçirildi. Simpoziumda Azərbaycandan başqa Türkiyə, Qazaxıstan, Özbəkistan, Pakistan, Hindistan, ABŞ, İran, Kanada, Şimali Kipr və Əlcəzairdən 36 məruzəçi əyani, 31 məruzəçi isə onlayn şəkildə öz elmi yeniliklərini təqdim etdilər.

Açılış mərasimində çıxış edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı dünya mədəniyyətində Mövlana Cəlaləddinin mövqeyinə diqqət çəkərək, simpoziumun əhəmiyyətini vurğuladı və təşkilatçılara öz təşəkkürünü bildirərək, Yaxın Şərq Universiteti ilə əməkdaşlığın davam edəcəyini diqqətə çatdırdı.



*Qadir Golkarian, Hamlet İsaxanlı*

Yaxın Şərq Universitetinin professoru, Rumi Araşdırmaları Mərkəzinin müdiri Qadir Golkarian universitetin təsisçisi Prof. İrfan Suat Günsel`in və rektoru Prof. Tamer Şanlıdağ`ın salamlarını çatdırdı. O, artıq 9 ildir təşkil olunan beynəlxalq simpoziumun dünyanın bir çox ölkələrində tanındığını, mövlanaşünas mütəxəssislərin hər il səbrsizliklə gözlədiyi bir tədbir olduğunu, hər dəfə simpoziumlarda bu dahi mütəfəkkirlə bağlı yeni fikirlər səsləndiyini ifadə etdi.



*Rekibuddin Ahmed (Hindistan Guvahati Universiteti)*

Sonra çıxış edən Mövlana Ədəbi-Fəlsəfi Araşdır-

*(Ardı səh.68-də)*

event where valuable scholars and researchers from many countries present competent research on Sufi literature, philosophy, scientific perspectives on the Mevlevi order, mysticism, and wisdom.

The symposium was conducted in-person on December 12 and online on December 13. At the symposium, 36 speakers in person and 31 speakers online from Azerbaijan, Türkiye, Kazakhstan, Uzbekistan, Pakistan, India, USA, Iran, Canada, Northern Cyprus, and Algeria presented their scientific innovations.

Speaking at the opening ceremony, Khazar University's founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli highlighted Mevlana Jalaluddin's position in world culture, emphasized the importance of the symposium, and expressed his gratitude to the organizers, noting that cooperation with Near East University would continue. Professor of Near East University and Director of Rumi Research Center, Qadir Golkarian conveyed greetings from the university's founder Prof. Irfan Suat Günsel and rector Prof. Tamer Şanlıdağ. He expressed that the international symposium, organized for 9 years now, is recognized in many countries worldwide, is an event eagerly anticipated by Rumi scholars each year, and new ideas about this genius thinker are voiced at each symposium.

Then, speaking Director of the Mevlana Literary-

*(To be continued page 68)*

malar İnstitutunun müdiri Prof. Nəzakət Məmmədli simpoziumun çox vacib bir missiyaya – şərq mədəniyyətinin təmsilçiləri arasında düşüncə körpüsü quran, özündən sonra nəhəng xələf ordusu qoyub gedən, günümüzə və gələcəyə yönəlik humanist fikirləri ilə çağlar aşan Mövlana Cəlaləddin Rumi irsinin yeni aspektlərdən tədqiqinə xidmət etdiyini dilə gətirdi.

Xəzər Universitetinin Mərmər zalında baş tutan açılış mərasiminin sonunda Hamlet İsaxanlı, rektor Dos. İradə Xəlilova Yaxın Şərq Universitetinin təsisçisi və rektoruna öz hədiyyələrini təqdim etdilər. Hədiyyələri onlar adına Qədir Golkarian alaraq, tə-



*Fəridə Seyidova (MƏFAİ)*

şəkkür bildirdi. Həmçinin, öz növbəsində İrfan Suat Günsel`in və Tamer Şanlıdağ`ın hədiyyələrini çatdıran Golkarian bu əməkdaşlığın daimi olmasını arzuladığını ifadə etdi.

Sonda Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestrinin və tələbələrdən ibarət xor və rəqs qrupunun çıxışları izlənildi.

Açılışdan sonra rəsmi panel və üç əlavə paneldə məruzələr dinlənildi. Mövlana yaradıcılığını ədəbiyyatşünaslıq, dilçilik, sosioloji, pedaqoji, incəsənət, təsəvvüfi aspektlərdən incələyən məruzəçilər öz elmi tədqiqatlarını təqdim etdilər.

Bağlanış iclası ilə konfrans yüksək qiymətləndirildi, qarşıya qoyulan hədəflər, simpozium məruzələrinin nəşr olunması və növbəti simpozium üçün hədəflər müəyyənləşdirildi.

*Konfransın işini Azərbaycan və Şimali Kipr mediası ilə yanaşı İranın "Asri Azadi" qəzeti də mətn və fotolarla işıqlandırıb.*




*Gamze Özok (Türkiyə Van Yüzüncü yıl Universiteti)*

Philosophical Research Institute, Prof. Nazakat Mammadli expressed that the symposium serves a very important mission - studying new aspects of Mevlana Jalaluddin Rumi's legacy, who built bridges of thought among representatives of eastern culture, left behind a huge army of successors, and transcended ages with his humanist ideas directed towards our time and the future.

Hamlet Isakhanli and Rector Assoc. Prof. Irada Khalilova presented their gifts to the founder and rector of Near East University following the opening ceremony, which took place in Khazar University's Marble Hall. After accepting the gifts, Qadir Golkarian conveyed his appreciation. In turn, Golkarian conveyed gifts from Irfan Suat Günsel and Tamer Şanlıdağ and expressed his wish for this cooperation to be permanent. Finally, performances by the university's Chamber orchestra and student choir and dance group under the direction of Zulfiyya Sadigova, head of Khazar University's Music and Fine Arts Department, were watched. After the opening, presentations were heard in the official panel and three additional panels. Speakers examining Mevlana's work from literary, linguistic, sociological, pedagogical, artistic, and Sufi aspects presented their scientific research.

The conference concluded with a closing session where it was highly evaluated, targets were set, publication of symposium presentations was discussed, and goals for the next symposium were determined.

*Along with the media of Azerbaijan and Northern Cyprus, "Asri Azadi" newspaper also shed light on the conference with texts and photos.*

***https://asrazadionline.ir/?p=112977***

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN DOKTORANTININ DİSSERTASİYA İŞİNİN İLKİN MÜZAKİRƏSİ

Dekabrın 16-da Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin doktorantı Pərvin Kərimovanın "İnsanın kommunikativ mahiyyəti" mövzusunda dissertasiya işinin ilkin müdafiəsi baş tutmuşdur. Doktorant tərəfindən mövzunun aktuallığı, məqsəd və tədqiqat nəticələri ətraflı şəkildə izah olunmuşdur.

Müdafiədə komissiyasının sədri Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev, rəyçi Dr. Gündüz Süleymanov (Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutu,



*Pərvin Kərimova*



*Zeynəddin Şabanov, Gündüz Süleymanov, Mətləb Mahmudov*

böyük elmi işçi), komissiya üzvləri Dr. Paşa Quluzadə (Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tarix və coğrafiya fakültəsinin dekan müavini), Dos Mətləb. Mahmudov (Azərbaycan Milli Elmlər Akademiyası, Müasir Fəlsəfə Problemləri Şöbəsinin aparıcı elmi işçisi), Dos. Zeynəddin Şabanov (Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutu, aparıcı elmi işçi), Prof. Akif Abbasov (Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi), katib Aydan Raufqızı, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan əvəzi Aygün Verdiyeva, departamentin müəllimləri və dekanlıq əməkdaşları iştirak etmişdir.

Mövzu ətrafında müzakirələr keçirildikdən sonra iş müsbət qiymətləndirilmiş və növbəti mərhələyə təqdim olunması qərara alınmışdır.

# PRELIMINARY DISCUSSION OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT DOCTORAL STUDENT'S DISSERTATION

On December 16, a preliminary defense of the dissertation "The Communicative Nature of Human Being" by Parvin Karimova, a doctoral student at Khazar University's Department of Political Science and Philosophy, took place. The doctoral student provided detailed explanations about the relevance of the topic, objectives, and research findings.

The defense committee included Chairman Assoc. Prof. Orkhan Valiyev (Head of the Department of Political Science and Philosophy), reviewer Dr. Gunduz Suleymanov (Senior Researcher, Institute of Philosophy and Sociology, Azerbaijan National Academy of Sciences), and committee members Dr. Guluzade Pasha (Vice Dean of the Faculty of History and Geography, Azerbaijan State Pedagogical University), Assoc. Prof. Matlab Mahmudov (Leading Researcher, Department of Modern Philosophy Problems, Azerbaijan National Academy of Sciences), Assoc. Prof. Zeynaddin Shabanov (Leading Researcher, Institute of Philosophy and Sociology, Azerbaijan National Academy of Sciences), Prof. Akif Abbasov (Scientific Secretary of the Education Institute of the Republic of Azerbaijan), secretary Aydan Raufgizi, Gunel Bahaddinova (Dean of the Graduate School of Science, Arts and Technology), Aygun Verdiyeva (Acting Dean of the School of Humanities, Education and Social Sciences), department faculty members, and dean's office staff.

After discussions about the topic, the work received a positive evaluation and was approved to proceed to the next stage.



*Əfəndi Əliyev*

## AZƏRBAYCAN BEYNƏLXAQ BANKININ XƏZƏR UNİVERSİTETİNDƏ MƏLUMAT SESSİYASI

Dekabrın 17-də Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Beynəlxalq Bankının Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin 3-cü və 4-cü kurs tələbələri üçün məlumat sessiyası təşkil olundu. Bankın "Qoşa saat" layihəsi çərçivəsində Biznes kreditlərinin təhlili departamentinin əməkdaşı, Xəzər Universitetinin müəllimi Əfəndi Əliyev "Korporativ bankçılıqda maliyyə təhlilinin rolu və əhəmiyyəti" mövzusunda məruzə ilə çıxış etdi.

O, böyük şirkətlər üçün xidmətlər və maliyyələşdirmə prosesi, korporativ kredit təhlili, bazarın səmərəliliyi və məlumat asimmetriyası, kredit analitiki bacarıqları və s. məqamlardan bəhs etdi. Həmçinin, Ə. Əliyev sözügedən bankda hazırda mövcud olan vakansiyalar haqqında da məlumat verdi.

Sonda tələbələrin sualları cavablandırıldı.

## INFORMATION SESSION FROM AZERBAIJAN INTERNATIONAL BANK AT KHAZAR UNIVERSITY

On December 17, an information session was organized by the Career and Alumni Center for 3rd and 4th-year students of the School of Economics and Management at Khazar University. As part of the bank's "Dual Hour" project, Afandi Aliyev, an employee of the Business Credit Analysis Department and a lecturer at Khazar University, delivered a presentation on "The Role and Importance of Financial Analysis in Corporate Banking".

He discussed services and financing processes for large companies, corporate credit analysis, market efficiency, information asymmetry, credit analytical skills, and other related aspects. Mr. Aliyev also provided information about current vacancies at the bank.

The session concluded with students' questions being answered.



# VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI RAMİZ CƏFƏROVUN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ DƏRS

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin rus bölməsi üzrə I kursunda Dillər və ədəbiyyatlar departamentinin müəllimi Pərvin Eyvazov tərəfindən tədris olunan "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin növbəti mövzusu Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin polkovnik-leytenantı, İkinci Qarabağ müharibəsinin iştirakçısı və şəhidi, Vətən Müharibəsi Qəhrəmanı Ramiz Sübhan oğlu Cəfərovun xatirəsinə həsr olunub.

Dekabrın 17-də keçirilən və polkovnik-leytenant Ramiz Cəfərovun 50 illik yubileyi ərəfəsinə təsadüf edən dərsdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidin əziz xatirəsi yad olunub.

Şəhidin qızı, İqtisadiyyat və menecment fakültəsinin 1-ci kurs tələbəsi Nərgiz Cəfərova geniş çıxış edərək, Ramiz Cəfərovun şərəfli ömür yolundan, xidmət etdiyi dövrdə göstərdiyi igidliklərdən, həmçinin şəhidin ailə başçısı kimi şəxsi keyfiyyətlərindən söz açıb, atası ilə bağlı xatirələrini bölüşüb.

Sonra Ramiz Cəfərovun ömür yolundan bəhs olunan videoçarx nümayiş olunub.

Sonda fənn müəllimi Pərvin Eyvazov çıxış edərək, belə qəhrəmanlarımızın hər bir vətəndaş üçün nümunə olduğunu vurğulayıb, gəncləri vətənpərvər ruhda yetişməyə çağırıb.

# LESSON DEDICATED TO HOMELAND WAR HERO RAMIZ JAFAROV



*Ramiz Cəfərov*



*Nərgiz Cəfərova*

A lesson for the first-year Russian division of the School of Economics and Management at Khazar University, taught by Parvin Eyvazov in the "Business and Academic Communication in Azerbaijani Language" course, was dedicated to the memory of Azerbaijan Special Forces Colonel-Lieutenant, Second Karabakh War participant and martyr, Homeland War Hero Ramiz Subhan oglu Jafarov.

On the eve of Colonel-Lieutenant Ramiz Jafarov's 50th jubilee, the lesson which held on December 17, began with the national anthem of the Republic of Azerbaijan, followed by a minute of silence to honor the martyr's memory.

The hero's daughter, first-year student of the School of Economics and Management, Nargiz Jafarova, delivered a comprehensive speech about Ramiz Jafarov's honorable life path, the heroism he demonstrated during his service, and his personal qualities as a family leader. She shared her personal memories about her father.

A video presentation about Ramiz Jafarov's life journey was then shown. At the end, course instructor Parvin Eyvazov emphasized that such heroes serve as an example for every citizen and called on the youth to be raised in a patriotic spirit.

# "UNUDULMUŞ QƏDİM BAYRAMLARIMIZ: ÇİLLƏ GECƏSİ" MÖVZUSUNDA TƏDBİR

# EVENT ON "OUR FORGOTTEN ANCIENT HOLIDAYS: CHELLE NIGHT"

Dekabrın 20-də Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) təşkilatçılığı ilə "Unudulmuş qədim bayramlarımız: Çillə gecəsi" mövzusunda məlumatlandırıcı tədbir keçirildi. Tədbirin məqsədi qədim türk inancları və mədəniyyətində xüsusi yer tutan Çillə bayramının



*Aynur Qəzənfərqızı*

ənənələrini yenidən xatırlatmaq, bu dəyərləri gənc nəsillərə çatdırmaq idi.

Tədbir boyunca aparıcılar qədim türklərin təbiətlə bağlı ayinləri və Göy Tanrı inancı haqqında geniş məlumat verdilər. Qədim türklərin 21 dekabr gecəsini, yəni ilin ən uzun gecəsini qaranlıq ilə işığın mübarizəsi kimi qeyd etdikləri vurğulandı. Bu gecə insanların günəşə dəstək olmaq üçün oyaq qalması, küknar ağacı bəzəməsi və əyləncələr təşkil etməsi barədə maraqlı faktlar tamaşaçılara təqdim edildi.

Tədbir çərçivəsində xüsusi olaraq həyata keçirilən "Divani Lüğət-it-Türk yeniyetmə tədqiqatçıların ifasında" adlı layihə böyük marağa səbəb oldu. Bu layihə Xəzər Universiteti və Qusar rayonunun Cibir kənd tam orta məktəbinin VIII "b" sinif şagirdlərinin birgə əməkdaşlığı

On December 20, an informative event titled "Our Forgotten Ancient Holidays: Chelle Night" was held, organized by Khazar University's Institute of Cultural Anthropology and Folklore (ICAF). The event aimed to remind people of the traditions of the Chella holiday, which holds a special place in ancient Turkic beliefs and



*Nəcibə Zeynalova*

culture, and to pass these values on to younger generations.

Throughout the event, presenters provided extensive information about ancient Turkic nature-related rituals and the Sky God belief. It was emphasized that ancient Turks celebrated December 21st night, the longest night of the year, as a struggle between darkness and light. Interesting facts were presented about how people stayed awake on this night to support the sun, decorated fir trees, and organized festivities.



*Hamlet İsaxanlı*

ilə həyata keçirilmişdi. Layihənin rəhbəri, Xəzər Universitetinin məzunu və hazırda Cibir məktəbində fəaliyyət göstərən Nəcibə Zeynalova MAFİ-nin koordinatoru Dos. Aynur Qəzənfərqızının dəstəyi ilə yeniyetmə şagirdləri qədim türk ədəbiyyatına maraq göstərməyə və onu səhnələşdirməyə təşviq etmişdi.

(*Ardı səh.74-də*)

A special project called "Divani Lughat-it-Turk Performed by Young Researchers" generated great interest during the event. This project was implemented through collaboration between Khazar University and 8th grade "b" class students from Jibir village secondary school in Gusar region. The project leader,

(*To be continued page 74*)





*Aşıq Ramin Qarayev*

Tədbirin ən maraqlı hissələrindən biri də məhz həmin layihə çərçivəsində hazırlanan səhnəciklər oldu. Cibir məktəbinin şagirdləri qədim türk mədəniyyətini əks etdirən səhnələrlə qədim inancların və adətlərin yenidən canlanmasına töhfə verdilər. Onların təqdim etdiyi səhnəciklər "Kutadqu Bilik" əsərindən ilhamlanaraq hazırlanmışdı və qədim hikmətlərin çağdaş dövrdə nə qədər əhəmiyyətli olduğunu göstərirdi.



Bundan başqa, tədbirdə Xəzər Universitetinin müəllimi aşıq Ramin Qarayev Hamlet İsaxanlının şeirini Bayatı-Şiraz üstündə sazda ifa edərək, tamaşaçılara düşündürücü anlar yaşatdı. Şagirdlərin ifası və musiqi çıxışları tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılandı.

Tədbirin bağlanışında aparıcılar vurğuladılar

Najiba Zeynalova, a Khazar University graduate currently working at Jibir school, encouraged teenage students to take interest in and dramatize ancient Turkic literature with the support of ICAF coordinator Assoc. Prof. Aynur Gazanfargizi.

One of the most interesting parts of the event was the theatrical performances prepared within this project. Students from Jibir school contributed to the revival of ancient beliefs and cus-



toms through scenes reflecting ancient Turkic culture. Their performances were inspired by the work "Kutadgu Bilig" and demonstrated the contemporary relevance of ancient wisdom.

Additionally, Khazar University instructor and ashug Ramin Garayev performed Hamlet Isakhanli's poem on saz in Bayati-Shiraz style, creating thoughtful moments for the audience. The students' performances and musical presentations were highly appreciated by the audience.

In the closing of the event, the presenters emphasized that this event was a step toward preserving national heritage and passing it on



ki, bu tədbir milli irsi yaşatmaq və gələcək nəsillərə çatdırmaq üçün bir addım idi. Sonda tədbirin təşkilatçıları Dos. Aynur Qəzənfərqızı və Nəcibə Zeynalova bu cür layihələrin davamlı olmasının vacibliyini bildirdilər və öz ürək sözlərini bölüşdülər.

to future generations. Finally, event organizers Assoc. Prof. Aynur Gazanfargizi and Najiba Zeynalova expressed the importance of continuing such projects and shared their heartfelt thoughts.



Layihə ali təhsil ilə orta məktəb arasında körpü yaradaraq, qədim türk ədəbiyyatı və mədəniyyətinin yenidən kəşf edilməsində mühüm rol oynadı.

**Aydan Nəsirli**
*Xəzər Universiteti, Filologiya (İngilis dili və ədəbiyyatı) ixtisası, II kurs*

The project played an important role in rediscovering ancient Turkic literature and culture by building a bridge between higher education and secondary school.

**Aydan Nasirli**
*Khazar University, Philology (English Language and Literature), Year II*

# ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI

Dekabrın 25-də Xəzər Universiteti Elmi Şurasının növbəti iclası keçirildi. İclası Xəzər Universitetin rektoru Dos. İradə Xəlilova açaraq, gündəlikdəki məsələləri Elmi Şura üzvlərinin nəzərinə çatdırdı.

Sədr İradə Xəlilova Elmi Şuranın tərkibində edilən dəyişikliklər barədə şura üzvlərinə məlumat verdi.

Gündəliyin birinci məsələsi olan məzunlar haqqında məlumatları Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova və İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov təqdim etdilər. Universitetin məzun olan magistratura tələbələrinin qiymətləri, ixtisasları və s. haqqında ətraflı məlumat dinlənildi və müzakirələr aparıldı.

Gündəliyin ikinci məsələsi olan doktorant və dissertantların dissertasiya mövzuları və elmi rəhbərləri haqqında yüksək təhsil fakültələrinin dekanları məlumat verdilər. Hər bir tələbə tədqiqat aparacağı dissertasiya mövzusunun aktuallığı, tədqiqat metodları və s. haqqında danışdı. Şura üzvləri tərəfindən tələbələrə suallar ünvanlandırıldı və müvafiq qərarlar qəbul edildi.

Sonra rektor İradə Xəlilova gündəliyin üçüncü məsələsi olan magistratura əsasnaməsi barədə məlumat üçün sözü elmi katib Günel Bahəddinovaya verdi. Elmi katib qeyd etdi ki, əsasnamə hər bir Elmi Şura üzvünə əvvəlcədən göndərilib. Magistrtura əsasnaməsində magistrantın dissertasiya işinin mövzusunun təyin olunmasından yazılmasına qədər bütün məlumatlar tam aydınlıqla öz əksini tapmışdır.

Elmi Şuranın katibi Günel Bahəddinova gündəliyin dördüncü məsələsi olan Xəzər Universitetinin elmi fəaliyyəti haqqında yazılan illik hesabat haqqında məlumat verdi. O qeyd etdi ki, hesabat fakültələrin, akademik departamentlərin, elmi tədqiqat mərkəzlərinin və digər müvafiq qurumların elmi fəaliyyəti əsasında yazılmışdır. Məsələ müzakirə olunaraq, hesabat qəbul edildi.

Elmi Şuranın növbəti məsələsi Dillər və ədəbiyyatlar departamentinin müəllimi fil.ü.f.d. Aynur Qəzənfərqızına dosent adının verilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılması ilə bağlı universitetin Elmi Şurasına olunmuş müraciətə baxıldı. Elmi Şuranın katibi iddiaçı

# NEXT MEETING OF THE SCIENTIFIC COUNCIL

On December 25, the next meeting of the Scientific Council of Khazar University was held. Associate Professor Irada Khalilova, Rector of Khazar University, opened the meeting and brought the agenda items to the attention of Scientific Council members.

Chairperson Irada Khalilova informed council members about changes made to the composition of the Scientific Council.

Regarding the first item on the agenda about graduates, information was presented by Gunel Bahaddinova, Dean of the Graduate School of Science, Art and Technology, and Ingilab Ahmadov, Dean of the Graduate School of Economics and Business. Detailed information about graduating master's students' grades, specializations, etc., was heard and discussed.

For the second agenda item, faculty deans provided information about doctoral students' dissertation topics and scientific supervisors. Each student discussed the relevance of their dissertation topic, research methods, etc. Council members directed questions to the students and appropriate decisions were made.

Then, Rector Irada Khalilova gave the floor to Scientific Secretary Gunel Bahaddinova for information about the third agenda item concerning master's degree regulations. The Scientific Secretary noted that the regulations had been sent to each Scientific Council member in advance. The master's degree regulations clearly reflected all information from the assignment of the master's student's dissertation topic to its writing.

Scientific Council Secretary Gunel Bahaddinova provided information about the fourth agenda item concerning the annual report on Khazar University's scientific activities. She noted that the report was written based on the scientific activities of faculties, academic departments, research centers, and other relevant entities. The matter was discussed and the report was accepted.

The next item of the Scientific Council considered an application to petition the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for awarding the title of associate professor to Ph.D. Aynur Gazanfargizi, instructor at the Department of Languages and Literature. The Scientific Council Secretary provided detailed infor-

haqqında ətraflı məlumat verdi. Sonra hesablama komissiyası yaradılaraq gizli səsvermə keçirildi. Hesablama komissiyasının sədri tərəfindən nəticə şura üzvlərinə açıqlandı və protokol tərtib edildi.

Daha sonra sədr İradə Xəlilova gündəliyin altıncı məsələsi olan final imtahan sessiyası ilə bağlı məlumatları şura üzvlərinə çatdırmaq üçün sözü tədris işləri üzrə prorektor Məhəmməd Nuriyevə verdi. Prorektor imtahan suallarının formalaşdırılması, imtahan prosesinin təşkili ilə bağlı qaydaları şura üzvlərinin nəzərinə çatdırdı. Dekanlıq və departament rəhbərlərinini bu prosesə çox ciddi hazırlaşmalarını vurğuladı.

Elmi şuranın gündəliyindəki bütün məsələlər müzakirə olunaraq, müvafiq qərarlar qəbul edildi.

mation about the candidate. Then, a counting commission was created and a secret ballot was held. The results were announced to council members by the chairman of the counting commission and a protocol was prepared.

Later, Chairperson Irada Khalilova gave the floor to Vice-Rector for Academic Affairs Muhammad Nuriyev to inform council members about the sixth agenda item concerning the final examination session. The Vice-Rector brought the rules regarding exam question formation and examination process organization to the attention of council members. He emphasized that deans and department heads should prepare very seriously for this process.

All items on the Scientific Council's agenda were discussed and appropriate decisions were made.

## BUZOVNA ZƏKA KURSLARININ DİNLƏYİCİLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

## STUDENTS OF BUZOVNA INTELLIGENCE COURSES AT KHAZAR UNIVERSITY



Dekabrın 25-də Xəzər Universitetinin Mərmər salonunda Buzovna Zəka Kurslarının abituriyentləri ilə görüş keçirilmişdir. Tədbirdə universitetin əməkdaşı Nüşabə Alıyeva Xəzər Universitetinin tədris prosesi və təhsil imkanları barədə ətraflı məlumat vermiş, abituriyentlərin suallarını cavablandırmışdır.

Sonda Buzovna Zəka Kurslarının abituriyentləri universitetin maddi-texniki bazası ilə yaxından tanış olmuşlar.

On December 25, a meeting was held with university entrants from Buzovna Intelligence Courses in the Marble Hall of Khazar University. At the event, university employee Nushaba Aliyeva provided detailed information about the educational process and opportunities at Khazar University and answered questions from the university entrants.

At the end, the university entrants from Buzovna Intelligence Courses got closely acquainted with the university's material and technical facilities.




# HƏR SAATIN ÖZ VAXTI VAR...



# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi
* Memarlıq

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi
* Musiqi müəllimliyi